**99568** Digər sektorların qiymətli kağızlarının alınması üzrə təəhhüdlər
**99569** Digər sektorların qiymətli kağızlarının satılması üzrə təəhhüdlər

**9957 Xarici valyutanın alınması/satılması üzrə təəhhüdlər**
**99570** Spot müqavilələri əsasında xarici valyutanın alınması üzrə təəhhüdlər
**99571** Spot müqavilələri əsasında xarici valyutanın satılması üzrə təəh-hüdlər

**9958 Törəmə maliyyə alətləri üzrə təəhhüdlər**
**99580** Forvard müqavilələri əsasında maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99581** Forvard müqavilələri əsasında maliyyə alətlərinin satılması üzrə təəhhüdlər
**99582** Opsion müqavilələri əsasında maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99583** Opsion müqavilələri əsasında maliyyə alətlərinin satılması üzrə təəhhüdlər
**99584** SVOP müqavilələri əsasında maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99585** SVOP müqavilələri əsasında maliyyə alətlərinin satılması üzrə təəhhüdlər
**99586** Fyuçers müqavilələri əsasında maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99587** Fyuçers müqavilələri əsasında maliyyə alətlərinin satılması üzrə təəhhüdlər
**99588** Digər törəmə maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99589** Digər törəmə maliyyə alətlərinin satılması üzrə təəhhüdlər

**9959 Digər maliyyə alətlərinin alınması/satılması üzrə təəhhüdlər**
**99590** Digər maliyyə alətlərinin alınması üzrə təəhhüdlər
**99591** Digər maliyyə alətlərinin satılması üzrə təəhhüdlər

**9960 Digər təəhhüdlər**
**99600** Digər təəhhüdlər

**MEMORANDUM HESABLARI**

**9973 Digər təşkilatlar tərəfindən buraxılmış qiymətli kağızlar**
**99730** Digər təşkilatlar tərəfindən buraxılmış yenidən satılmaq üçün nəzərdə tutulan qiymətli kağızlar
**99731** Digər təşkilatlar tərəfindən buraxılmış saxlanca qoyulmuş qiymətli kağızlar
**99732** Digər təşkilatlar tərəfindən buraxılmış məhv edilməli qiymətli kağızlar

**9974 Verilmiş kreditlər və avanslar üzrə götürülmüş girov**
**99740** Verilmiş kreditlər və avanslar üzrə girov götürülmüş qiymətli metallar

**99741** Verilmiş kreditlər və avanslar üzrə girov götürülmüş qiymətli kağızlar

**99742** Verilmiş kreditlər və avanslar üzrə girov götürülmüş daşınar əmlak

**99743** Verilmiş kreditlər və avanslar üzrə girov götürülmüş daşınmaz əmlak

**99749** Verilmiş kreditlər və avanslar üzrə girov götürülmüş digər təminatlar

**9975 Saxlanca qoyulmuş qiymətli metallar**
**99750** Saxlanca qoyulmuş qızıl
**99751** Saxlanca qoyulmuş digər qiymətli metallar
**99752** Yolda olan saxlanca qoyulmuş qızıl və digər qiymətli metallar

**9978 Digər sənədlər və qiymətlilər**
**99784** Saxlanca götürülmüş sənədlər və qiymətlilər
**99789** Digər sənədlər və qiymətlilər

**9981 Əməliyyat icarəsinə götürülmüş aktivlər**
**99810** Əməliyyat icarəsinə götürülmüş aktivlər

**9982 Lizinq müqavilələri üzrə götürülmüş aktivlər**
**99820** Lizinq müqavilələri üzrə götürülmüş aktivlər

**9989 Digər memorandum hesabları**
**99890** Digər memorandum hesabları

**BALANSDANKƏNAR KONTR-HESAB**

**9999 Aktivlər üçün balansdankənar kontr-hesab**
**99990** Aktivlər üçün balansdankənar kontr-hesab

# AZƏRBAYCAN RESPUBLİKASININ BANK SİSTEMİ ÜÇÜN HESABLAR PLANININ TƏTBİQİNƏ DAİR METODİKİ GÖSTƏRİŞLƏR

## AKTIVLƏR

### SİNİF 10 Nağd pul, digər ödəniş vasitələri və affinaj edilmiş qiymətli metallar

**Təyinatı:** Bu sinifdə əks olunan hesablar nağd pul, digər ödəniş vasitələri və affinaj edilmiş qiymətli metalların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Nağd pul və digər ödəniş vasitələri uçotda nominal dəyərlə, affinaj edilmiş qiymətli metallar ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Affinaj edilmiş qiymətli metallar müntəzəm olaraq yenidən qiymətləndirilir və qiymətləndirmənin nəticələri mənfəət və ya zərər hesablarında əks olunur.

**Uçotdan çıxarılma:** Nağd pul və digər ödəniş vasitələri məxaric olunduqda, affinaj edilmiş qiymətli metallar satıldıqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 1001** Kassa - milli valyutada
**Qrup 1002** Kassa - xarici valyutada
**Qrup 1003** Yolda olan nağd pul və digər ödəniş vasitələri - milli valyutada
**Qrup 1004** Yolda olan nağd pul və digər ödəniş vasitələri - xarici valyutada
**Qrup 1005** Valyuta mübadiləsi şöbələrindəki nağd pul - milli valyutada
**Qrup 1006** Valyuta mübadiləsi şöbələrindəki nağd pul - xarici valyutada
**Qrup 1007** Ödəniş terminallarındakı nağd pul - milli valyutada
**Qrup 1008** Ödəniş terminallarındakı nağd pul - xarici valyutada
**Qrup 1009** Yol çekləri - milli valyutada
**Qrup 1010** Yol çekləri - xarici valyutada
**Qrup 1011** Yubiley və xatirə pul nişanları - milli valyutada
**Qrup 1020** Affinaj edilmiş qiymətli metallar - qiymətli metallarla
**Qrup 1021** Yolda olan affinaj edilmiş qiymətli metallar - qiymətli metallarla

***10010/10020 (aktiv)*** *- Bu hesablar kassada saxlanılan nağd pulun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** kassaya mədaxil olunan nağd pulun məbləği əks olunur.
**Hesabların krediti üzrə** kassadan məxaric olunan nağd pulun məbləği əks olunur.

***10030/10040 (aktiv)*** *- Bu hesablar bank, onun filialları və şöbələri arasında yolda olan nağd pul və digər ödəniş vasitələrinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** göndərilən nağd pul və digər ödəniş vasitələrinin məbləği əks olunur.
**Hesabların krediti üzrə** təyinatı üzrə çatan, müxbir və digər hesablara bərpa olunan nağd pul və digər ödəniş vasitələrinin məbləği əks olunur.

***10050/10060 (aktiv)*** *- Bu hesablar valyuta mübadiləsi şöbələrindəki nağd pulun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** valyuta mübadiləsi şöbələrinə göndərilən nağd pulun məbləği əks olunur.
**Hesabların krediti üzrə** valyuta mübadiləsi şöbələrindən geri qaytarılan nağd pulun məbləği əks olunur.

***10070/10079/10080/10089 (aktiv)** - Bu hesablar ödəniş terminallarındakı (bankomat və digər ödəniş terminalları) nağd pulun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəniş terminallarına yerləşdirilən və mədaxil olunan nağd pulun məbləği əks olunur.
**Hesabların krediti üzrə** ödəniş terminallarından məxaric olunan nağd pulun məbləği əks olunur.

***10090/10100 (aktiv)** - Bu hesablar yol çeklərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** mədaxil olunan yol çeklərinin dəyəri əks olunur.
**Hesabların krediti üzrə** məxaric olunan yol çeklərinin dəyəri əks olunur.

***10110 (aktiv)** - Bu hesab Azərbaycan Respublikasının xatirə sikkələrinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** mədaxil olunan xatirə sikkələrinin dəyəri əks olunur.
**Hesabların krediti üzrə** məxaric olunan xatirə sikkələrinin dəyəri əks olunur.

***10200/10209 (aktiv)** - Bu hesablar affinaj edilmiş qızıl və digər qiymətli metalların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** mədaxil olunan affinaj edilmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** məxaric olunan affinaj edilmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.

***10210/10219 (aktiv)** - Bu hesablar yolda olan affinaj edilmiş qızıl və digər qiymətli metalların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** yolda olan affinaj edilmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** təyinatı üzrə çatan, müxbir və digər hesablara bərpa olunan affinaj edilmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.

## SİNİF 11 Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) ilə hesablaşmalar

**Təyinat:** Bu sinifdə əks olunan hesablar AMB ilə hesablaşmaların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** AMB ilə hesablaşmalar ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** AMB ilə hesablaşmalar effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** AMB ilə hesablaşmalar üzrə məbləğlər müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə və geri qaytarıldıqda uçotdan çıxarılır.

**Qrup 1101** AMB-dəki «nostro» müxbir hesablar - milli valyutada
**Qrup 1102** AMB-dəki «nostro» müxbir hesablar - xarici valyutada
**Qrup 1103** AMB-dəki «nostro» müxbir hesablar - qiymətli metallarla

***110X0 (aktiv)** - Bu hesablar AMB-dəki «nostro» müxbir hesablarda olan vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki «nostro» müxbir hesablara mədaxil olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB-dəki «nostro» müxbir hesablardan məxaric olunan məbləğlər əks olunur.

***110X1 (aktiv)*** *- Bu hesablar AMB-dəki «nostro» müxbir hesablar üzrə bloklaşdırılmış vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki bloklaşdırılmış «nostro» müxbir hesablara mədaxil olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB-dəki bloklaşdırılmış «nostro» müxbir hesablardan məxaric olunan məbləğlər əks olunur.

***110X2 (aktiv)*** *- Bu hesablar AMB-dəki «nostro» müxbir hesablar üzrə hesablanmış alınacaq faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki «nostro» müxbir hesablar üzrə gəlir hesablarında tanınan alınacaq faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB-dəki «nostro» müxbir hesablar üzrə alınan faiz məbləğləri əks olunur.

| | | |
|---|---|---|
| **Qrup** | **1111** | AMB-də yerləşdirilmiş qısamüddətli depozitlər - milli valyutada |
| **Qrup** | **1112** | AMB-də yerləşdirilmiş qısamüddətli depozitlər - xarici valyutada |
| **Qrup** | **1113** | AMB-də yerləşdirilmiş qısamüddətli depozitlər - qiymətli metallarla |
| **Qrup** | **1121** | AMB-də yerləşdirilmiş uzunmüddətli depozitlər - milli valyutada |
| **Qrup** | **1122** | AMB-də yerləşdirilmiş uzunmüddətli depozitlər - xarici valyutada |
| **Qrup** | **1123** | AMB-də yerləşdirilmiş uzunmüddətli depozitlər - qiymətli metallarla |

***111X0/112X0 (aktiv)*** *- Bu hesablar AMB-də yerləşdirilmiş qısamüddətli/uzunmüddətli depozitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-də yerləşdirilmiş depozitlərin məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-də yerləşdirilmiş depozitlər üzrə geri qaytarılan məbləğlər əks olunur.

***111X2/112X2 (aktiv)*** *- Bu hesablar AMB-də yerləşdirilmiş qısamüddətli/uzunmüddətli depozitlər üzrə hesablanmış alınacaq faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-də yerləşdirilmiş depozitlər üzrə gəlir hesablarında tanınan alınacaq faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB-də yerləşdirilmiş depozitlər üzrə alınan faiz məbləğləri əks olunur.

| | | |
|---|---|---|
| **Qrup** | **1171** | AMB ilə əks-REPO əməliyyatları - milli valyutada |
| **Qrup** | **1172** | AMB ilə əks-REPO əməliyyatları - xarici valyutada |

***117X0 (aktiv)*** *- Bu hesablar AMB ilə əks-REPO əməliyyatlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə əks-REPO əməliyyatları üzrə əməliyyatların açılma tarixinə tələblərin məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə əks-REPO əməliyyatlarının bağlanması və ləğv olunması ilə bağlı silinən məbləğlər əks olunur.

***117X2 (aktiv)*** *- Bu hesablar AMB ilə əks-REPO əməliyyatları üzrə hesablanmış alınacaq faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə əks-REPO əməliyyatları üzrə gəlir hesablarında tanınan alınacaq faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə əks-REPO əməliyyatları üzrə alınan faiz məbləğləri əks olunur.

**Qrup 1196** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə tənzimləmələr - milli valyutada
**Qrup 1197** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə tənzimləmələr - xarici valyutada
**Qrup 1198** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə tənzimləmələr - qiymətli metallarla

***11960/11970/11980 (aktiv)*** *- Bu hesablar AMB-də yerləşdirilmiş vəsaitlərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə müsbət tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan müsbət tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə müsbət tənzimləmələrin məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə müsbət tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı müsbət tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

***11961/11971/11981 (kontr-aktiv)*** *- Bu hesablar AMB-də yerləşdirilmiş vəsaitlərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə mənfi tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan mənfi tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə mənfi tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı mənfi tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-də yerləşdirilmiş vəsaitlər üzrə mənfi tənzimləmələrin məbləği əks olunur.

## SİNİF 12 Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar

**Təyinatı:** Bu sinifdə əks olunan hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar ədalətli dəyərlə tanınır. Əməliyyatlarla bağlı birbaşa məsrəflər xərclərə aid edilir.
**Qiymətləndirmə:** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar müntəzəm olaraq yenidən qiymətləndirilir və qiymətləndirmənin nəticələri mənfəət və ya zərər hesablarında əks olunur.
**Uçotdan çıxarılma:** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar satıldıqda, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirildikdə və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 1201** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət qiymətli kağızları - milli valyutada
**Qrup 1202** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət qiymətli kağızları - xarici valyutada
**Qrup 1203** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada
**Qrup 1204** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada

**Qrup 1205** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada

**Qrup 1206** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada

**Qrup 1207** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan rezident digər sektorların qiymətli kağızları - milli valyutada

**Qrup 1208** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

**Qrup 1209** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qeyri-rezident digər sektorların qiymətli kağızları - milli valyutada

**Qrup 1210** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qeyri-rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

***120X0/12100 (aktiv)*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyəri əks olunur.

**Hesabların krediti üzrə** satılan, girov qoyulan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kate-qoriyalara keçirilən və balansdan silinən ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyəri əks olunur.

***120X1/12101(aktiv)*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan girov qoyulmuş dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan girov qoyulmuş qiymətli kağızların dəyəri əks olunur.

**Hesabların krediti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan girovdan qaytarılan və balansdan silinən qiymətli kağızların dəyəri əks olunur.

***120X2/12102 (aktiv)*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə hesablanmış alınacaq faiz/kuponun uçotunu apar-maq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə gəlir hesablarında tanınan alınacaq faiz/kupon məb-ləğləri əks olunur.

**Hesabların krediti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə alınan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və balansdan silinən faiz/kupon məbləğləri əks olunur.

***120X3/12103 (aktiv/kontr-aktiv)*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsimənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə yenidənqiymətləndirmənin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyərinin artması məbləğləri, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən mənfi qalıq məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyərinin azalması məbləğləri, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.

***120X8/12108 (aktiv)*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə vaxtı keçmiş borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə vaxtı keçmiş borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə alınan və balansdan silinən vaxtı keçmiş borcların məbləği əks olunur.

| | |
|---|---|
| **Qrup 1251** | Sövdələşmələr üzrə alınacaq ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar - milli valyutada |
| **Qrup 1252** | Sövdələşmələr üzrə alınacaq ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar - xarici valyutada |
| **Qrup 1253** | Sövdələşmələr üzrə satılmış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar - milli valyutada |
| **Qrup 1254** | Sövdələşmələr üzrə satılmış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar - xarici valyutada |

Bu qruplara daxil olan hesablar qiymətli kağızlar üzrə əməliyyatların əqdin bağlanma günü tanınması metodunu (uçot siyasətini) qəbul etmiş banklar tərəfindən əqdin bağlanma tarixindən hesablaşma tarixinədək qiymətli kağızların uçotunun aparılması üçün istifadə olunur.

***12510/12520 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** hesablaşma tarixində 120X0/12100 saylı hesablara aid edilən ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyəri əks olunur.

***12513/12523 (aktiv/kontr-aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə yenidənqiymətləndirmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyərinin artması məbləğləri və hesablaşma tarixində yenidənqiymətləndirmə üzrə 120X3/12103 saylı hesablara aid edilən mənfi qalıq məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyərinin azalması məbləğləri və hesablaşma tarixində yenidənqiymətləndirmə üzrə 120X3/12103 saylı hesablara aid edilən müsbət qalıq məbləğləri əks olunur.

***12530/12540 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər*

*sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış qiymətli kağızların yenidənqiymətləndirilməsi üzrə qalıq məbləğləri, alınacaq faiz/ kupon məbləğləri, satış üzrə gəlir və zərər məbləğləri nəzərə alınmaqla, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** 12532/12542 saylı hesablarda tanınmış məbləğlər çıxılmaqla ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızların satışından əldə olunan məbləğlər əks olunur.

***12532/12542 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə hesablanmış, alınacaq faiz/kuponun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə gəlir hesablarında tanınan alınacaq faiz/kupon məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə alınan faiz/kupon məbləğləri əks olunur.

## SİNİF 13 Satış üçün mövcud olan qiymətli kağızlar

**Təyinat:** Bu sinifdə əks olunan hesablar satış üçün mövcud olan qiymətli kağızların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Satış üçün mövcud olan qiymətli kağızlar əməliyyatlarla birbaşa əlaqəsi olan məsrəflər (broker haqqı, birja komissiyası və s.) əlavə edilməklə ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Satış üçün mövcud olan qiymətli kağızlar müntəzəm olaraq yenidən qiymətləndirilir və qiymətləndirmənin nəticələri kapital hesablarında əks olunur. Satış üçün mövcud olan qiymətli kağızların ədalətli dəyərində baş verən dəyişikliklərlə bağlı dəyərdən düşməyə dair obyektiv sübutlar mövcud olduqda, bu qiymətli kağızlar üzrə mənfi yenidənqiymətləndirmənin nəticələri dəyərdən düşmə zərərinə aid edilir.
**Uçotdan çıxarılma:** Satış üçün mövcud olan qiymətli kağızlar satıldıqda, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirildikdə və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 1301** Satış üçün mövcud olan dövlət qiymətli kağızları - milli valyutada
**Qrup 1302** Satış üçün mövcud olan dövlət qiymətli kağızları - xarici valyutada

**Qrup 1303** Satış üçün mövcud olan rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada

**Qrup 1304** Satış üçün mövcud olan rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada

**Qrup 1305** Satış üçün mövcud olan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada
**Qrup 1306** Satış üçün mövcud olan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada
**Qrup 1307** Satış üçün mövcud olan rezident digər sektorların qiymətli kağızları - milli valyutada

**Qrup 1308** Satış üçün mövcud olan rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

**Qrup 1309** Satış üçün mövcud olan qeyri-rezident digər sektorların qiymətli kağızları - milli valyutada

**Qrup 1310** Satış üçün mövcud olan qeyri-rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

***130X0/13100 (aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** satılan, girov qoyulan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və balansdan silinən satış üçün mövcud olan qiymətli kağızların dəyəri əks olunur.

***130X1/13101 (aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan girov qoyulmuş dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan girov qoyulmuş qiymətli kağızların dəyəri əks olunur.

**Hesabların krediti üzrə** satış üçün mövcud olan girovdan qaytarılan və balansdan silinən qiymətli kağızların dəyəri əks olunur.

***130X2/13102 (aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə hesablanmış alınacaq faiz/kuponun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə gəlir hesablarında tanınan alınacaq faiz/kupon məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə alınan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və balansdan silinən faiz/ kupon məbləğləri əks olunur.

***130X3/13103 (aktiv/kontr-aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə yenidənqiymətləndirmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızların dəyərinin artması məbləğləri, 130X6/13106 saylı hesablara aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən mənfi qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** satış üçün mövcud olan qiymətli kağızların dəyərinin azalması məbləğləri, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.

***130X6/13106 (kontr-aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezi-dent/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə dəyərdən düşmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızların dəyərinin artması ilə əlaqədar əvvəlki dövrlərdə tanınmış dəyərdən düşmə məbləğinin bərpası və uçotdan çıxarılması zamanı dəyərdən düşmə üzrə silinən qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə zərər hesablarında tanınan dəyərdən düşmə məbləğləri əks olunur.

***130X8/13108 (aktiv)*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru*

*və digər sektorların qiymətli kağızları üzrə vaxtı keçmiş borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə vaxtı keçmiş borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə alınan və balansdan silinən vaxtı keçmiş borcların məbləği əks olunur.

**Qrup 1351** Sövdələşmələr üzrə alınacaq satış üçün mövcud olan qiymətli kağızlar - milli valyutada

**Qrup 1352** Sövdələşmələr üzrə alınacaq satış üçün mövcud olan qiymətli kağızlar - xarici valyutada

**Qrup 1353** Sövdələşmələr üzrə satılmış satış üçün mövcud olan qiymətli kağızlar - milli valyutada

**Qrup 1354** Sövdələşmələr üzrə satılmış satış üçün mövcud olan qiymətli kağızlar - xarici valyutada

Bu qruplara daxil olan hesablar qiymətli kağızlar üzrə əməliyyatların əqdin bağlanma günü tanınması metodunu (uçot siyasətini) qəbul etmiş banklar tərəfindən əqdin bağlanma tarixindən hesablaşma tarixinədək qiymətli kağızların uçotunun aparılması üçün istifadə olunur.
***13510/13520 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** hesablaşma tarixində 130X0/13100 saylı hesablara aid edilən satış üçün mövcud olan qiymətli kağızların dəyəri əks olunur.

***13513/13523 (aktiv/kontr-aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sek-toru və digər sektorların qiymətli kağızları üzrə yenidənqiymətləndirmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan qiymətli kağızların dəyərinin artması məbləğləri, dəyərdən düşmə üzrə 13516/13526 saylı və hesablaşma tarixində yenidənqiymətləndirmə üzrə 130X3/13103 saylı hesablara aid edilən mənfi qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan qiymətli kağızların dəyərinin azalması məbləğləri və hesablaşma tarixində yenidənqiymətləndirmə üzrə 130X3/13103 saylı hesablara aid edilən müsbət qalıq məbləğləri əks olunur.

***13516/13526 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə dəyərdən düşmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan qiymətli kağızların dəyərinin artması ilə əlaqədar əvvəlki dövrlərdə tanınmış dəyərdən düşmə məbləğinin bərpası və hesablaşma tarixində 130X6/13106 saylı hesablara aid edilən qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş satış üçün mövcud olan qiymətli kağızlar üzrə zərər hesablarında tanınan dəyərdən düşmə məbləğləri əks olunur.

***13530/13540 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış qiymətli kağızların yenidən qiymətləndirilməsi və dəyərdən düşməsi üzrə qalıq məbləğləri, alınacaq faiz/kupon məbləğləri, satış üzrə gəlir və zərər məbləğləri nəzərə alınmaqla satış üçün mövcud olan qiymətli kağızların dəyəri əks olunur.

**Hesabların krediti üzrə** 13532/13542 saylı hesablarda tanınmış məbləğlər çıxılmaqla satış üçün mövcud olan qiymətli kağızların satışından əldə olunan məbləğlər əks olunur.
***13532/13542 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə hesablanmış faiz/kuponun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış satış üçün mövcud olan qiymətli kağızlar üzrə gəlir hesablarında tanınan alınacaq faiz/kupon məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** sövdələşmələr üzrə satılmış, dəyəri əldə olunmamış satış üçün mövcud olan qiymətli kağızlar üzrə alınan faiz/kupon məbləğləri əks olunur.

## SİNİF 14 Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar

**Təyinat:** Bu sinifdə əks olunan hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar əməliyyatlarla birbaşa əlaqəsi olan məsrəflər (broker haqqı, birja komissiyası və s.) əlavə edilməklə ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar amortizasiya olunmuş dəyərlə ölçülür. Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların amortizasiyası üzrə məbləğlər mənfəət və ya zərər hesablarında əks olunur.
Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir və müvafiq ehtiyatlar yaradılır.
**Uçotdan çıxarılma:** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların dəyəri tam ödənildikdə, geri qaytarıldıqda, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirildikdə və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 1401** Ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət qiymətli kağızları - milli valyutada

**Qrup 1402** Ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət qiymətli kağızları - xarici valyutada
**Qrup 1403** Ödəmə müddəti tamamlanana qədər saxlanılan rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada
**Qrup 1404** Ödəmə müddəti tamamlanana qədər saxlanılan rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada
**Qrup 1405** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - milli valyutada
**Qrup 1406** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qeyri-rezident maliyyə sektorunun qiymətli kağızları - xarici valyutada
**Qrup 1407** Ödəmə müddəti tamamlanana qədər saxlanılan rezident digər sektorların qiymətli kağızları - milli valyutada
**Qrup 1408** Ödəmə müddəti tamamlanana qədər saxlanılan rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

**Qrup 1409** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qeyri-rezident digər sektorların qiymətli kağızları - milli valyutada

**Qrup 1410** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qeyri-rezident digər sektorların qiymətli kağızları - xarici valyutada

***140X0/14100 (aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan, dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** dəyəri tam ödənilən, geri qaytarılan, girov qoyulan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və balansdan silinən ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların dəyəri əks olunur.

***140X1/14101 (aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan girov qoyulmuş dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan girov qoyulmuş qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan girovdan qaytarılan və balansdan silinən qiymətli kağızların dəyəri əks olunur.

***140X2/14102 (aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə hesablanmış alınacaq faiz/kuponun uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə gəlir hesablarında tanınan alınacaq faiz/kupon məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə alınan, vaxtı keçmiş borc hesablarına aid edilən, MHBS-də nəzərdə tutulan hallarda qiymətli kağızlar üzrə digər kateqoriyalara keçirilən və balansdan silinən faiz/kupon məbləğləri əks olunur.

***140X4/14104 (kontr-aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan, dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının nominal dəyərinin ədalətli dəyərindən artıq olan məbləğinin (diskontun) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların nominal dəyəri ilə ədalətli dəyəri arasında yaranan diskontun amortizasiyası məbləği əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların nominal dəyəri ilə ədalətli dəyəri arasında yaranan diskont məbləği əks olunur.

***140X5/14105 (aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan, dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının ədalətli dəyərinin nominal dəyərindən artıq olan məbləğinin (mükafatın) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların ədalətli dəyəri ilə nominal dəyəri arasında yaranan mükafat məbləği əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların ədalətli dəyəri ilə nominal dəyəri arasında yaranan mükafatın amortizasiyası məbləği əks olunur.

***140X8/14108 (aktiv)*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə vaxtı keçmiş borcların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə vaxtı keçmiş borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə alınan və balansdan silinən vaxtı keçmiş borcların məbləği əks olunur.

**Qrup 1451** Sövdələşmələr üzrə alınacaq ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar - milli valyutada
**Qrup 1452** Sövdələşmələr üzrə alınacaq ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar - xarici valyutada

Bu qruplara daxil olan hesablar qiymətli kağızlar üzrə əməliyyatların əqdin bağlanma günü tanınması metodunu (uçot siyasətini) qəbul etmiş banklar tərə-findən əqdin bağlanma tarixindən hesablaşma tarixinədək qiymətli kağızların uçotunun aparılması üçün istifadə olunur.

***14510/14520 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** hesablaşma tarixində 140X0/14100 saylı hesablara aid edilən ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların dəyəri əks olunur.

***14514/14524 (kontr-aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan, dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının nominal dəyərinin ədalətli dəyərindən artıq olan məbləğinin (diskontun) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** hesablaşma tarixində 140X4/14104 saylı hesablara aid edilən ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə diskont məbləği əks olunur.
**Hesabların krediti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların nominal dəyəri ilə ədalətli dəyəri arasında yaranan diskont məbləği əks olunur.

***14515/14525 (aktiv)*** *- Bu hesablar sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan, dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızlarının ədalətli dəyərinin nominal dəyərindən artıq olan məbləğinin (mükafatın) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** sövdələşmələr üzrə alınmış, dəyəri ödənilməmiş ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızların ədalətli dəyəri ilə nominal dəyəri arasında yaranan mükafat məbləği əks olunur.
**Hesabların krediti üzrə** hesablaşma tarixində 140X5/14105 saylı hesablara aid edilən ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə mükafat məbləği əks olunur.

**Qrup 1491** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə ehtiyatlar - milli valyutada

***1491X (kontr-aktiv)** - Bu qrupa daxil olan hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə bərpa olunan və balansdan silinən ehtiyatların məbləği əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə yaradılmış ehtiyatların məbləği əks olunur.

## SİNİF 15 Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar maliyyə sektorunda yerləşdirilmiş vəsaitlərin və verilmiş kreditlərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər ədalətli dəyərlə tanınır.

**Qiymətləndirmə**: Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir və müvafiq ehtiyatlar yaradılır.
**Uçotdan çıxarılma:** Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər geri qaytarıldıqda, müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə, MHBS-də nəzərdə tutulan hallarda digər borc alətləri kimi rəsmiləşdiril-dikdə və balansdan silindikdə uçotdan çıxarılır.

| | | |
|---|---|---|
| **Qrup** | **1501** | Banklardakı «nostro» müxbir hesablar - milli valyutada |
| **Qrup** | **1502** | Banklardakı «nostro» müxbir hesablar - xarici valyutada |
| **Qrup** | **1503** | Banklardakı «nostro» müxbir hesablar - qiymətli metallarla |
| **Qrup** | **1504** | Xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar - xarici valyutada |
| **Qrup** | **1505** | Xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar - qiymətli metallarla |

***150X0/150X5 (aktiv)** - Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablarda olan vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** «nostro» müxbir hesablara mədaxil olunan məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** «nostro» müxbir hesablardan məxaric olunan və balansdan silinən məbləğlər əks olunur.

***150X1/150X6 (aktiv)** - Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar üzrə bloklaşdırılmış vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** bloklaşdırılmış «nostro» müxbir hesablara mədaxil olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** bloklaşdırılmış «nostro» müxbir hesablardan məxaric olunan və balansdan silinən məbləğlər əks olunur.

***150X2/150X7 (aktiv)** - Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar üzrə hesablanmış alınacaq faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** «nostro» müxbir hesablar üzrə gəlir hesablarında tanınan alınacaq faiz məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** «nostro» müxbir hesablar üzrə alınan və balansdan silinən faiz məbləğləri əks olunur.

**Qrup 1506** Bank olmayan kredit təşkilatlarının cari hesabları üzrə overdraft - milli valyutada

**Qrup 1507** Bank olmayan kredit təşkilatlarının cari hesabları üzrə overdraft- xarici valyutada

**Qrup 1508** Bank olmayan kredit təşkilatlarının cari hesabları üzrə overdraft- qiymətli metallarla

**Qrup 1509** Digər maliyyə institutlarının cari hesabları üzrə overdraft - milli valyutada

**Qrup 1510** Digər maliyyə institutlarının cari hesabları üzrə overdraft - xarici valyutada

**Qrup 1511** Digər maliyyə institutlarının cari hesabları üzrə overdraft - qiymətli metallarla

**Qrup 1512** Bankların «loro» müxbir hesabları üzrə overdraft - milli valyutada
**Qrup 1513** Bankların «loro» müxbir hesabları üzrə overdraft - xarici valyutada
**Qrup 1514** Bankların «loro» müxbir hesabları üzrə overdraft - qiymətli metallarla
**Qrup 1515** Xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları üzrə overdraft **-** xarici valyutada

**Qrup 1516** Xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları üzrə overdraft - qiymətli metallarla

***150X0/150X5/151X0/151X5 (aktiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların müxbir hesabları, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesabları üzrə overdraftların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** maliyyə sektorunun hesabları üzrə overdraftların məbləği əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorunun hesabları üzrə overdraftların ödənilməsi üçün alınan, vaxtı keçmiş əsas borc hesablarına aid edilən, digər borc alətləri kimi rəsmiləşdirilən və balansdan silinən məbləğlər əks olunur.

***150X2/150X7/151X2/151X7 (aktiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların müxbir hesabları, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesablarının overdraftları üzrə hesablanmış alınacaq faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorunun overdraftları üzrə gəlir hesablarında tanınan alınacaq faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorunun overdraftları üzrə alınan, vaxtı keçmiş faiz borcu hesablarına aid edilən, digər borc alətləri kimi rəsmiləşdirilən və balansdan silinən faiz məbləğləri əks olunur.

***150X3/150X8/151X3/151X8 (aktiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların müxbir hesablarının, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesablarının overdraftları üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorunun overdraftları üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

**Hesabların krediti üzrə** maliyyə sektorunun overdraftları üzrə alınan, digər borc alətləri kimi rəsmiləşdirilən və balansdan silinən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***150X4/150X9/151X4/151X9 (aktiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların müxbir hesablarının, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesablarının overdraftları üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorunun overdraftları üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Qrup 2401** Cari mənfəət vergisi üzrə hesablaşmalar - milli valyutada

***24010 (aktiv)*** *- Bu hesab cari mənfəət vergisi üzrə hesablaşmaların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** cari mənfəət vergisi üzrə köçürülmüş avans məbləğləri əks olunur.
**Hesabın krediti üzrə** köçürülmüş avanslar üzrə bərpa olunan məbləğlər əks olunur.

**Qrup 2451** Təxirə salınmış mənfəət vergisi aktivi - mili valyutada

***24510 (aktiv)*** *- Bu hesab təxirə salınmış mənfəət vergisi aktivinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** təxirə salınmış mənfəət vergisi aktivinin məbləği əks olunur.

**Hesabın krediti üzrə** təxirə salınmış mənfəət vergisi öhdəliklərinin yerinə yetirilməsi üzrə əvəzləşdirilən məbləğlər, təxirə salınmış mənfəət vergisi aktivi üzrə dəyərin azalması məbləği əks olunur.

## SİNİF 25 Digər aktivlər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar digər aktivlərin uçotunu aparmaq üçün istifadə olunur
**İlkin tanınma:** Digər aktivlər MHBS-yə uyğun olaraq ilkin və ya ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Digər aktivlər MHBS-yə uyğun olaraq ilkin dəyərlə, ədalətli dəyərlə, effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə və ya ilkin dəyərlə xalis satış dəyərinin ən aşağı məbləği ilə ölçülür.
Digər aktivlər MHBS-də nəzərdə tutulan hallarda müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir və müvafiq ehtiyatlar yaradılır.
**Uçotdan çıxarılma:** Digər aktivlər satıldıqda, müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə, məxaric olunduqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 2501** Ödənilməkdə olan məbləğlər - milli valyutada
**Qrup 2502** Ödənilməkdə olan məbləğlər - xarici valyutada

***2501X/2502X (aktiv)*** *- Bu hesablar ödəniş kartları, xarici valyuta və qiymətli metalların alınması/satılması üzrə başa çatdırılmamış hesablaşmaların və digər ödənilməkdə olan məbləğlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödənilməkdə olan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** ödənilməkdə olan məbləğlər üzrə geri qaytarılan və balansdan silinən məbləğlər əks olunur.

**Qrup 2503** Hesablanmış komissiyalar - milli valyutada
**Qrup 2504** Hesablanmış komissiyalar - xarici valyutada

***2503X/2504X (aktiv)*** *- Bu hesablar hüquqi və fiziki şəxslərlə hesablaşmalar və digər xidmətlər üzrə hesablanmış alınacaq komissiyaların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** gəlir hesablarında tanınan alınacaq komissiyaların məbləği əks olunur.
**Hesabların krediti üzrə** alınan və balansdan silinən komissiyaların məbləği əks olunur.

**Qrup 2505** İşçilərlə hesablaşmalar - milli valyutada
**Qrup 2506** İşçilərlə hesablaşmalar - xarici valyutada

***2505X/2506X (aktiv)*** *- Bu hesablar işçilərlə aparılan hesablaşmaların (avans məbləğləri, ezamiyyələr və s. üzrə) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** işçilərə qabaqcadan ödənilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** avans hesabatlarının alınması nəticəsində xərclərə silinən və geri qaytarılan məbləğlər əks olunur.

**Qrup 2507** Müəyyən edilməmiş məbləğlər - milli valyutada
**Qrup 2508** Müəyyən edilməmiş məbləğlər - xarici valyutada

***2507X/2508X (aktiv)*** *- Bu hesablar banklararası və digər əməliyyatlar üzrə müəyyən edilməmiş məbləğlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** müəyyən edilməmiş məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** müəyyən edildikdən sonra müvafiq hesablardan mədaxil olunan və balansdan silinən məbləğlər əks olunur.

**Qrup 2509** Dövlət Büdcəsi ilə hesablaşmalar - milli valyutada
**Qrup 2510** Vergilər üzrə debitor borclar (mənfəət vergisi istisna olmaqla) - milli valyutada

**Qrup 2511** Dövlət fondları ilə hesablaşmalar - milli valyutada

***25090/2510X/2511X (aktiv)*** *- Bu hesablar Dövlət Büdcəsi, Dövlət Sosial Müdafiə Fondu və digər dövlət fondları ilə hesablaşmaların və mənfəət vergisi istisna olmaqla digər vergilər (əlavə dəyər vergisi, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, fiziki şəxslərin gəlir vergisi, yol vergisi, mənbədən tutulan vergi və s.) üzrə debitor borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** Dövlət Büdcəsi və dövlət fondlarına avans olaraq köçürülmüş məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** köçürülmüş avanslar üzrə bərpa olunan məbləğlər əks olunur.

**Qrup 2512** Qabaqcadan ödəmələr - milli valyutada
**Qrup 2513** Qabaqcadan ödəmələr - xarici valyutada

***2512X/2513X (aktiv)*** *- Bu hesablar əsas vəsaitlər, qeyri-maddi aktivlər, mal-materialların, xidmətlərin və s. alınması üzrə qabaqcadan ödəmələrin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** qabaqcadan ödənilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** qabaqcadan ödəmələr üzrə geri qaytarılan, müvafiq hesablara aid edilən və balansdan silinən məbləğlər əks olunur.

**Qrup 2514** Materiallar və ehtiyatlar - milli valyutada

***25140 (aktiv)*** *- Bu hesab material və ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** material və ehtiyatların məbləği əks olunur.
**Hesabın krediti üzrə** istifadə olunan və balansdan silinən material və ehtiyatların məbləği əks olunur.

**Qrup 2515** Gələcək dövrün xərcləri - milli valyutada
**Qrup 2516** Gələcək dövrün xərcləri - xarici valyutada
***2515X/2516X (aktiv)*** *- Bu hesablar bank əməliyyatları, təsərrüfat əməliyyatları və digər əməliyyatlar üzrə gələcək dövrün xərclərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** gələcək dövrün xərc məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** balansdan silinən gələcək dövrün xərc məbləğləri əks olunur.

**Qrup 2517** Filiallararası hesablaşmalar - milli valyutada
**Qrup 2518** Filiallararası hesablaşmalar - xarici valyutada

***2517X/2518X (aktiv)*** *- Bu hesablar filiallararası hesablaşmaların uçotunu aparmaq üçün istifadə olunur.*
*Bu hesabların qalığı müvafiq olaraq 4517X/4518X saylı hesabların qalığına bərabər olmalıdır.*
**Hesabların debeti üzrə** filiallararası hesablaşmalar üzrə mədaxil olunan məbləğlər əks olunur
**Hesabların krediti üzrə** filiallararası hesablaşmalar üzrə məxaric olunan məbləğlər əks olunur.

**Qrup 2521** Alınacaq dividendlər üzrə tələblər - milli valyutada
**Qrup 2522** Alınacaq dividendlər üzrə tələblər - xarici valyutada

***2501X/2502X (aktiv)*** *- Bu hesablar maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrdən alınacaq dividendlər üzrə tələblərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** törəmə, asılı və digər müəssisələrdən alınacaq dividendlərin məbləği əks olunur.
**Hesabların krediti üzrə** alınan və balansdan silinən dividendlərin məbləği əks olunur.

**Qrup 2525** Affinaj edilməmiş qiymətli metallar - qiymətli metallarla

***25250/25251 (aktiv)*** *- Bu hesablar affinaj edilməmiş qızıl və digər qiymətli metalların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** mədaxil olunan affinaj edilməmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** məxaric olunan affinaj edilməmiş qızıl və digər qiymətli metalların dəyəri əks olunur.

**Qrup 2527** Digər aktivlər - milli valyutada
**Qrup 2528** Digər aktivlər - xarici valyutada
**Qrup 2529** Digər aktivlər - qiymətli metallarla
***25270/25280/25290/ (aktiv)*** *- Bu hesablar digər debitorlar və digər aktivlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** digər debitorlar və digər aktivlər üzrə mədaxil olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** digər debitorlar və digər aktivlər üzrə məxaric olunan məbləğlər əks olunur.

**Qrup 2591** Digər aktivlər üzrə ehtiyatlar - milli valyutada

***25910 (kontr-aktiv)*** *- Bu hesablar digər aktivlər üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** digər aktivlər üzrə bərpa olunan və balansdan silinən ehtiyatların məbləği əks olunur.
**Hesabın krediti üzrə** digər aktivlər üzrə yaradılmış ehtiyatların məbləği əks olunur.

## SİNİF 26 Törəmə maliyyə alətləri

**Təyinat**: Bu sinifdə əks olunan hesablar törəmə maliyyə alətləri ilə əməliyyatlardan (forvard, opsion, SVOP, fyuçers və s.) yaranan aktivlərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma və qiymətləndirmə:** Törəmə maliyyə alətləri ədalətli dəyərlə tanınır və ölçülür.
**Uçotdan çıxarılma:** Törəmə maliyyə alətləri ilə əməliyyatlardan yaranan aktivlər müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə, törəmə maliyyə alətinin ədalətli dəyəri nominal dəyərindən az olduqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 2601** Törəmə maliyyə alətləri - milli valyutada
**Qrup 2602** Törəmə maliyyə alətləri - xarici valyutada

***2601X/2602X (aktiv)*** *- Bu hesablar törəmə maliyyə alətləri üzrə tələblərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** törəmə maliyyə alətinin ədalətli dəyərinin nominal dəyərindən artıq olan məbləği və ədalətli dəyərində müsbət dəyişikliklərin məbləği əks olunur.
**Hesabların krediti üzrə** törəmə maliyyə alətinin ədalətli dəyərində mənfi dəyişikliklərin məbləği, tələblər üzrə ödənilən məbləğlər və uçotdan çıxarılması zamanı silinən müsbət qalıq məbləği əks olunur.

## SİNİF 27 Satış üçün nəzərdə tutulan aktivlər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar satış üçün nəzərdə tutulan və xaric olunan qrup üzrə aktivlərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma və qiymətləndirmə:** Satış üçün nəzərdə tutulan və xaric olunan qrup üzrə aktivlər balans dəyəri ilə xalis satış dəyərinin ən aşağı məbləği ilə tanınır və ölçülür.
Satış üçün nəzərdə tutulan və xaric olunan qrup üzrə aktivlər müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir.
**Uçotdan çıxarılma:** Satış üçün nəzərdə tutulan aktivlər satıldıqda, aktivlər üzrə digər siniflərə təsnifləşdirildikdə və balansdan silindikdə uçotdan çıxarılır.
Xaric olunan qrup satıldıqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 2701** Satış üçün nəzərdə tutulan aktivlər - milli valyutada

***27010/27012/27018 (aktiv)*** *- Bu hesablar ödənilməmiş borclar müqabilində götürülmüş daşınar/daşınmaz əmlak və satış üçün nəzərdə tutulan digər aktivlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödənilməmiş borclar müqabilində götürülmüş əmlak və satış üçün nəzərdə tutulan digər aktivlərin dəyəri əks olunur.
**Hesabların krediti üzrə** satılan və ya istifadə məqsədinin dəyişilməsi ilə əlaqədar aktivlər üzrə digər siniflərə təsnifləşdirilən satış üçün nəzərdə tutulan aktivlərin dəyəri əks olunur.

***27011/27013/27019 (kontr-aktiv)*** *- Bu hesablar ödənilməmiş borclar müqabilində götürülmüş daşınar/daşınmaz əmlak və satış üçün nəzərdə tutulan digər aktivlər üzrə dəyərdən düşmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** ödənilməmiş borclar müqabilində götürülmüş daşınar/ daşınmaz əmlak və satış üçün nəzərdə tutulan digər aktivlərin dəyərdən düşməsi ilə əlaqədar əvvəlki dövrlərdə tanınmış dəyərdən düşmə məbləğinin bərpası və uçotdan çıxarılması zamanı silinən dəyərdən düşmə üzrə qalıq məbləğləri əks olunur.
**Hesabın krediti üzrə** ödənilməmiş borclar müqabilində götürülmüş daşınar/ daşınmaz əmlak və satış üçün nəzərdə tutulan digər aktivlər üzrə dəyərdən düşmə məbləğləri əks olunur.

**Qrup 2702** Xaric olunan qrup - milli valyutada

***27020 (aktiv)*** *- Bu hesab xaric olunan qrup üzrə aktivlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** xaric olunan qrup üzrə aktivlərin dəyəri əks olunur.
**Hesabların krediti üzrə** satılan və balansdan silinən xaric olunan qrup üzrə aktivlərin dəyəri əks olunur.
***27021 (kontr-aktiv)*** *- Bu hesab xaric olunan qrup üzrə dəyərdən düşmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** xaric olunan qrup üzrə aktivlərin dəyərdən düşməsi ilə əlaqədar əvvəlki dövrlərdə tanınmış dəyərdən düşmə məbləğinin bərpası və uçotdan çıxarılması zamanı silinən dəyərdən düşmə üzrə qalıq məbləği əks olunur.

**Hesabın krediti üzrə** xaric olunan qrup üzrə dəyərdən düşmə məbləğləri əks olunur.

## SİNİF 28 Əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti

**Təyinat:** Bu sinifdə əks olunan hesablar əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyətinin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti ilkin dəyərlə (aktivlə bağlı çəkilmiş birbaşa xərclər daxil olmaqla alış dəyəri) tanınır.
**Qiymətləndirmə:** Əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti MHBS-yə uyğun olaraq ilkin və ya ədalətli dəyərlə ölçülür.
Ədalətli dəyərlə ölçülən əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti müntəzəm olaraq yenidən qiymətləndirilir və qiymətləndirmənin nəticələri kapital hesablarında əks olunur.
İlkin dəyərlə ölçülən əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir və qiymətləndirmənin nəticələri dəyərdən düşmə zərərinə aid edilir.
**Uçotdan çıxarılma:** Əsas vəsaitlər, qeyri-maddi aktivlər və investisiya mülkiyyəti satıldıqda, əvəzsiz olaraq verildikdə, müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə, qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda və balansdan silindikdə uçotdan çıxarılır.

| | |
|---|---|
| **Qrup 2801** | Torpaq - milli valyutada |
| **Qrup 2802** | Binalar və qurğular - milli valyutada |
| **Qrup 2803** | Mebel və avadanlıqlar - milli valyutada |
| **Qrup 2804** | Kompüter və rabitə avadanlıqları - milli valyutada |
| **Qrup 2805** | Nəqliyyat vasitələri - milli valyutada |
| **Qrup 2806** | Digər əsas vəsaitlər - milli valyutada |
| **Qrup 2807** | Maliyyə icarəsinə götürülmüş əsas vəsaitlər - milli valyutada |
| **Qrup 2808** | İcarəyə alınmış əsas vəsaitlərin əsaslı təmiri - milli valyutada |
| **Qrup 2809** | Başa çatdırılmamış tikinti - milli valyutada |
| **Qrup 2810** | İncəsənət əsərləri və digər kolleksiya əşyaları - milli valyutada |

***280X0/281X0 (aktiv)*** *- Bu hesablar torpaq, binalar və qurğular, mebel və avadanlıqlar, kompüter və rabitə avadanlıqları, nəqliyyat vasitələri, digər əsas vəsaitlər, maliyyə icarəsinə götürülmüş əsas vəsaitlər, icarəyə alınmış əsas vəsaitlərin əsaslı təmiri, başa çatdırılmamış tikinti, incəsənət əsərləri və digər kolleksiya əşyalarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** daxil olan əsas vəsaitlərin dəyəri, kapitallaşdırılan məsrəflər, icarəyə götürülmüş əsas vəsaitlərin təmiri üzrə məbləğlər və əsas vəsaitlərin ədalətli dəyərinin artmasından yaranan yenidənqiymətləndirmə məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** uçotdan çıxarılan, digər qruplara təsnifləşdirilən əsas vəsaitlərin dəyəri, əsas vəsaitlərin ədalətli dəyərinin azalması və dəyərdən düşməsi üzrə məbləğlər əks olunur.

***280X1/281X1 (kontr-aktiv)*** *- Bu hesablar binalar və qurğular, mebel və avadanlıqlar, kompüter və rabitə avadanlıqları, nəqliyyat vasitələri, digər əsas vəsaitlər, maliyyə icarəsinə götürülmüş əsas vəsaitlər və icarəyə alınmış əsas vəsaitlərin əsaslı təmiri üzrə yığılmış köhnəlmənin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** uçotdan çıxarılan əsas vəsaitlər üzrə yığılmış köhnəlmə məbləğləri və əsas vəsaitlərin yenidən qiymətləndirilməsi üzrə məxaric olunan məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** əsas vəsaitlər üzrə hesablanan köhnəlmə məbləğləri və əsas vəsaitlərin yenidən qiymətləndirilməsi üzrə mədaxil olunan məbləğlər əks olunur.

**Qrup 2811** Proqram təminatları - milli valyutada
**Qrup 2812** Lisenziyalar - milli valyutada
**Qrup 2813** Digər qeyri- maddi aktivlər - milli valyutada
**Qrup 2814** Qudvil - milli valyutada

***281X0 (aktiv)*** *- Bu hesablar proqram təminatları, lisenziyalar, digər qeyri-maddi aktivlər və qudvilin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** daxil olan qeyri-maddi aktivlər və qudvilin dəyəri, kapitallaşdırılan məsrəflər, bu aktivlərin ədalətli dəyərinin artmasından yaranan yenidənqiymətləndirmə məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** uçotdan çıxarılan qeyri-maddi aktivlər və qudvilin dəyəri, bu aktivlərin ədalətli dəyərinin azalması və dəyərdən düşməsi üzrə məbləğlər əks olunur.

***281X1 (kontr-aktiv)*** *- Bu hesablar proqram təminatları, lisenziyalar və digər qeyri-maddi aktivlər üzrə yığılmış amortizasiyanın uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** uçotdan çıxarılan qeyri-maddi aktivlər üzrə yığılmış amortizasiya məbləğləri və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi üzrə məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** qeyri-maddi aktivlər üzrə hesablanan amortizasiya məbləğləri və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi üzrə mədaxil olunan məbləğlər əks olunur.

**Qrup 2815** İnvestisiya mülkiyyəti - milli valyutada

***28150 (aktiv)*** *- Bu hesab investisiya mülkiyyətinə aid olunan torpaq, binalar və qurğuların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** daxil olan investisiya mülkiyyətinin dəyəri, kapitallaşdırılan məsrəflər, investisiya mülkiyyətinin ədalətli dəyərinin artmasından yaranan yenidənqiymətləndirmə məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** uçotdan çıxarılan, digər qruplara təsnifləşdirilən investisiya mülkiyyətinın dəyəri, investisiya mülkiyyətinın ədalətli dəyərinin azalması və dəyərdən düşməsi üzrə məbləğlər əks olunur.

***28151 (kontr-aktiv)*** *- Bu hesab investisiya mülkiyyətinə aid olunan torpaq, binalar və qurğular üzrə yığılmış köhnəlmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** uçotdan çıxarılan investisiya mülkiyyəti üzrə yığılmış köhnəlmə məbləğləri və investisiya mülkiyyətinin yenidən qiymətləndirilməsi üzrə məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** investisiya mülkiyyəti üzrə hesablanan köhnəlmə məbləğləri və investisiya mülkiyyətinin yenidən qiymətləndirilməsi üzrə mədaxil olunan məbləğlər əks olunur.

**SİNİF 29 İnvestisiyalar**

**Təyinat**: Bu sinifdə əks olunan hesablar törəmə, asılı və digər müəssisələrə investisiyaların uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Törəmə, asılı və digər müəssisələrə investisiyalar ilkin dəyərlə tanınır.
**Qiymətləndirmə:** Törəmə, asılı və digər müəssisələrə investisiyalar MHBS-yə uyğun olaraq ilkin və ya ədalətli dəyərlə ölçülür.
Ədalətli dəyərlə ölçülən törəmə, asılı və digər müəssisələrə investisiyalar müntəzəm olaraq yenidən qiymətləndirilir və qiymətləndirmənin nəticələri mənfəət və zərər hesablarında əks olunur.
İlkin dəyərlə ölçülən törəmə, asılı və digər müəssisələrə investisiyalar müntəzəm olaraq dəyərdən düşmə predmetinə dair qiymətləndirilir və müvafiq ehtiyatlar yaradılır.
**Uçotdan çıxarılma:** Törəmə müəssisələrdə nəzarət, asılı müəssisələrdə əhəmiyyətli təsir itirildikdə, habelə asılı, törəmə və digər müəssisələr üzrə investisiyalar satıldıqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 2901** Maliyyə sektorunda fəaliyyət göstərən törəmə müəssisələrə investisiyalar - milli valyutada

**Qrup 2902** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə müəssisələrə investisiyalar - milli valyutada

**Qrup 2903** Maliyyə sektorunda fəaliyyət göstərən törəmə müəssisələrə investisiyalar - xarici valyutada

**Qrup 2904** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə müəssisələrə investisiyalar - xarici valyutada

**Qrup 2905** Maliyyə sektorunda fəaliyyət göstərən asılı müəssisələrə investisiyalar-milli valyutada

**Qrup 2906** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən asılı müəssisələrə investisiyalar - milli valyutada

**Qrup 2907** Maliyyə sektorunda fəaliyyət göstərən asılı müəssisələrə investisiyalar - xarici valyutada

**Qrup 2908** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən asılı müəssisələrə investisiyalar - xarici valyutada

**Qrup 2909** Maliyyə sektorunda fəaliyyət göstərən digər müəssisələrə investisiyalar - milli valyutada

**Qrup 2910** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən digər müəssisələrə investisiyalar - milli valyutada

**Qrup 2911** Maliyyə sektorunda fəaliyyət göstərən digər müəssisələrə investisiyalar - xarici valyutada

**Qrup 2912** Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən digər müəssisələrə investisiyalar - xarici valyutada

***290X0/291X0 (aktiv)*** *- Bu hesablar maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyaların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** törəmə, asılı və digər müəssisələrə investisiyaların məbləği əks olunur.
**Hesabların krediti üzrə** satılan və balansdan silinən törəmə, asılı və digər müəssisələrə investisiyaların məbləği əks olunur.

***290X3/291X3 (aktiv/kontr-aktiv)*** *- Bu hesablar maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə yenidən qiymətləndirmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** törəmə, asılı və digər müəssisələrə investisiyaların ədalətli dəyərinin artması, 290X6/291X6 saylı hesablara aid edilən məbləğlər və investisiyaların uçotdan çıxarılması zamanı

yenidənqiymətləndirmə üzrə silinən mənfi qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** asılı, törəmə və digər müəssisələrə investisiyaların ədalətli dəyərinin azalması və investisiyaların uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.

***290X6/291X6 (kontr-aktiv)*** *- Bu hesablar maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə dəyərdən düşmənin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** törəmə, asılı və digər müəssisələrə investisiyaların dəyərdən düşməsi ilə əlaqədar əvvəlki dövrlərdə tanınmış dəyərdən düşmə məbləğinin bərpası və uçotdan çıxarılması zamanı dəyərdən düşmə üzrə silinən qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə zərər hesablarında tanınan dəyərdən düşmə məbləğləri əks olunur.

**Qrup 2991** Investisiyalar üzrə ehtiyatlar - milli valyutada

***2991X (kontr-aktiv)*** *- Bu hesablar maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə bərpa olunan və balansdan silinən ehtiyatların məbləği əks olunur.
**Hesabların krediti üzrə** maliyyə və qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə, asılı və digər müəssisələrə investisiyalar üzrə yaradılmış ehtiyatların məbləği əks olunur.

# ÖHDƏLİKLƏR

## SİNİF 31 Azərbaycan Respublikası Mərkəzi Bankı (AMB) qarşısında öhdəliklər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar AMB qarşısında öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** AMB qarşısında öhdəliklər ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** AMB qarşısında öhdəliklər effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** AMB qarşısında öhdəliklər geri qaytarıldıqda, müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə, MHBS-də nəzərdə tutulan hallarda digər borc alətləri kimi rəsmiləşdirildikdə uçotdan çıxarılır.

**Qrup 3102** AMB-nin «loro» müxbir hesabları - xarici valyutada
**Qrup 3103** AMB-nin «loro» müxbir hesabları - qiymətli metallarla

***310X0 (passiv)*** *- Bu hesablar AMB-nin «loro» müxbir hesablarında olan vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-nin «loro» müxbir hesablarından məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB-nin «loro» müxbir hesablarına mədaxil olunan məbləğlər əks olunur.

***310X1 (passiv)*** *- Bu hesablar AMB-nin «loro» müxbir hesabları üzrə bloklaşdırılmış vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-nin bloklaşdırılmış «loro» müxbir hesablarından məxaric olunan

məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB-nin bloklaşdırılmış «loro» müxbir hesablarına mədaxil olunan məbləğlər əks olunur.

***310X2 (passiv)** - Bu hesablar AMB-nin «loro» müxbir hesabları üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-nin «loro» müxbir hesabları üzrə ödənilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB-nin «loro» müxbir hesabları üzrə xərc hesab-larında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

**Qrup 3104** AMB-dəki «nostro» müxbir hesablar üzrə overdraft - milli valyutada
**Qrup 3105** AMB-dəki «nostro» müxbir hesablar üzrə overdraft - xarici valyutada
**Qrup 3106** AMB-dəki «nostro» müxbir hesablar üzrə overdraft - qiymətli metallarla

***310X0 (passiv)** - Bu hesablar AMB-dəki «nostro» müxbir hesablar üzrə overdraftların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki «nostro» müxbir hesabların overdraftları üzrə ödənilən, vaxtı keçmiş əsas borc hesablarına aid edilən və digər borc alətləri kimi rəsmiləşdirilən məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** AMB-dəki «nostro» müxbir hesablar üzrə overdraftların məbləği əks olunur.

***310X2 (passiv)** - Bu hesablar AMB-dəki overdraft hesabları üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki overdraft hesabları üzrə ödənilən, vaxtı keçmiş faiz borcu hesablarına aid edilən və digər borc alətləri kimi rəsmiləşdirilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB-dəki overdraft hesabları üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***310X3 (passiv)** - Bu hesablar AMB-dəki overdraft hesabları üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki overdraft hesabları üzrə ödənilən və digər borc alətləri kimi rəsmiləşdirilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-dəki overdraft hesabları üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***310X4 (passiv)** - Bu hesablar AMB-dəki overdraft hesabları üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dəki overdraft hesabları üzrə ödənilən və digər borc alətləri kimi rəsmiləşdirilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Hesabların krediti üzrə** AMB-dəki overdraft hesabları üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3111** AMB-dən cəlb olunmuş qısamüddətli depozitlər - milli valyutada
**Qrup 3112** AMB-dən cəlb olunmuş qısamüddətli depozitlər - xarici valyutada
**Qrup 3113** AMB-dən cəlb olunmuş qısamüddətli depozitlər - qiymətli metallarla
**Qrup 3121** AMB-dən cəlb olunmuş uzunmüddətli depozitlər - milli valyutada
**Qrup 3122** AMB-dən cəlb olunmuş uzunmüddətli depozitlər - xarici valyutada

**Qrup 3123** AMB-dən cəlb olunmuş uzunmüddətli depozitlər - qiymətli metallarla

***311X0/312X0 (passiv)*** *- Bu hesablar AMB-dən cəlb olunmuş qısamüddətli/ uzunmüddətli depozitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə ödənilən və vaxtı keçmiş əsas borc hesablarına aid edilən məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** AMB-dən cəlb olunmuş depozitlərin məbləği əks olunur.

***311X2/312X2 (passiv)*** *- Bu hesablar AMB-dən cəlb olunmuş qısamüddətli/ uzunmüddətli depozitlər üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***311X3/312X3 (passiv)*** *- Bu hesablar AMB-dən cəlb olunmuş qısamüddətli/ uzunmüddətli depozitlər üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə ödənilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***311X4/312X4 (passiv)*** *- Bu hesablar AMB-dən cəlb olunmuş qısamüddətli/ uzunmüddətli depozitlər üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən cəlb olunmuş depozitlər üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3114** AMB-dən alınmış qısamüddətli kreditlər - milli valyutada
**Qrup 3115** AMB-dən alınmış qısamüddətli kreditlər - xarici valyutada
**Qrup 3116** AMB-dən alınmış qısamüddətli kreditlər - qiymətli metallarla
**Qrup 3124** AMB-dən alınmış uzunmüddətli kreditlər - milli valyutada
**Qrup 3125** AMB-dən alınmış uzunmüddətli kreditlər - xarici valyutada
**Qrup 3126** AMB-dən alınmış uzunmüddətli kreditlər - qiymətli metallarla

***311X0/312X0 (passiv)*** *- Bu hesablar AMB-dən alınmış qısamüddətli/uzunmüddətli kreditlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən alınmış kreditlər üzrə ödənilən, vaxtı keçmiş əsas borc hesablarına aid edilən və digər borc alətləri kimi rəsmiləşdirilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən alınmış kreditlərin məbləği əks olunur.

***311X2/312X2 (passiv)*** *- Bu hesablar AMB-dən alınmış qısamüddətli/uzunmüddətli kreditlər üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** AMB-dən alınmış kreditlər üzrə ödənilən, vaxtı keçmiş faiz borcu hesablarına aid edilən və digər borc alətləri kimi rəsmiləşdirilən faiz məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** AMB-dən alınmış kreditlər üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***311X3/312X3 (passiv)*** *- Bu hesablar AMB-dən alınmış qısamüddətli/uzunmüddətli kreditlər üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən alınmış kreditlər üzrə ödənilən və digər borc alətləri kimi rəsmiləşdirilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən alınmış kreditlər üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***311X4/312X4 (passiv)*** *- Bu hesablar AMB-dən alınmış qısamüddətli/uzunmüddətli kreditlər üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB-dən alınmış kreditlər üzrə ödənilən və digər borc alətləri kimi rəsmiləşdirilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB-dən alınmış kreditlər üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3171** AMB ilə REPO əməliyyatları - milli valyutada

**Qrup 3172** AMB ilə REPO əməliyyatları - xarici valyutada

***317X0 (passiv)*** *- Bu hesablar AMB ilə REPO əməliyyatlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə REPO əməliyyatlarının bağlanması və ləğv olunması ilə bağlı silinən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə REPO əməliyyatları üzrə əməliyyatın açılma tarixinə öhdəliklərin məbləği əks olunur.

***317X2 (passiv)*** *- Bu hesablar AMB ilə REPO əməliyyatları üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə REPO əməliyyatları üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə REPO əməliyyatları üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***317X3 (passiv)*** *- Bu hesablar AMB ilə REPO əməliyyatları üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə REPO əməliyyatları üzrə ödənilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə REPO əməliyyatları üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***317X4 (passiv)*** *- Bu hesablar AMB ilə REPO əməliyyatları üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB ilə REPO əməliyyatları üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB ilə REPO əməliyyatları üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3196** AMB qarşısında öhdəliklər üzrə tənzimləmələr - milli valyutada

**Qrup 3197** AMB qarşısında öhdəliklər üzrə tənzimləmələr - xarici valyutada

**Qrup 3198** AMB qarşısında öhdəliklər üzrə tənzimləmələr - qiymətli metallarla

***31960/31970/31980 (passiv)*** *- Bu hesablar AMB qarşısında öhdəliklərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə müsbət tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan müsbət tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** AMB qarşısında öhdəliklər üzrə müsbət tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı müsbət tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.
**Hesabların krediti üzrə** AMB qarşısında öhdəliklər üzrə müsbət tənzimləmələrin məbləği əks olunur.

***31961/31971/31981 (kontr-passiv)*** *- Bu hesablar AMB qarşısında öhdəliklərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə mənfi tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan mənfi tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur*
**Hesabların debeti üzrə** AMB qarşısında öhdəliklər üzrə mənfi tənzimləmələrin məbləği əks olunur.

**Hesabların krediti üzrə** AMB qarşısında öhdəliklər üzrə mənfi tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı mənfi tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

**SİNİF 32 Dövriyyədə olan nağd pul**

**Təyinat:** Bu sinifdə əks olunan hesablar dövriyyədə olan nağd pulun (banknotlar və sikkələrin) uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma və qiymətləndirmə:** Dövriyyədə olan nağd pul nominal dəyərlə tanınır və ölçülür.
**Uçotdan çıxarılma:** Dövriyyədə olan nağd pul dövriyyə üçün yararsız hala düşdükdə, pul nişanları dəyişdirildikdə və denominasiya prosesi zamanı uçotdan çıxarılır.

**Qrup 3201** Dövriyyədə olan banknotlar - milli valyutada
**Qrup 3202** Dövriyyədə olan sikkələr - milli valyutada

***32010/32020 (passiv)*** *- Bu hesablar dövriyyədə olan nağd pulun (banknotlar və sikkələrin) uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** dövriyyədən çıxarılan nağd pulun məbləği əks olunur.
**Hesabların krediti üzrə** dövriyyəyə buraxılan nağd pulun məbləği əks olunur.

**SİNİF 35 Maliyyə sektoru qarşısında öhdəliklər**

**Təyinat:** Bu sinifdə əks olunan hesablar maliyyə sektoru qarşısında öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Maliyyə sektoru qarşısında öhdəliklər ədalətli dəyərlə tanınır.

**Qiymətləndirmə:** Maliyyə sektoru qarşısında öhdəliklər effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** Maliyyə sektoru qarşısında öhdəliklər geri qaytarıldıqda, müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə və MHBS-də nəzərdə tutulan hallarda digər borc alətləri kimi rəsmiləşdirildikdə uçotdan çıxarılır.

**Qrup 3501** Bankların «loro» müxbir hesabları - milli valyutada
**Qrup 3502** Bankların «loro» müxbir hesabları - xarici valyutada
**Qrup 3503** Bankların «loro» müxbir hesabları - qiymətli metallarla
**Qrup 3504** Xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları - xarici valyutada

**Qrup 3505** Xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları - qiymətli metallarla

**Qrup 3506** Bank olmayan kredit təşkilatlarının cari hesabları - milli valyutada
**Qrup 3507** Bank olmayan kredit təşkilatlarının cari hesabları - xarici valyutada
**Qrup 3508** Bank olmayan kredit təşkilatlarının cari hesabları - qiymətli metallarla
**Qrup 3509** Digər maliyyə institutlarının cari hesabları - milli valyutada
**Qrup 3510** Digər maliyyə institutlarının cari hesabları - xarici valyutada
**Qrup 3511** Digər maliyyə institutlarının cari hesabları - qiymətli metallarla

***350X0/350X5/351X0/351X5 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesablarında olan vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** «loro» müxbir hesablardan və cari hesablardan məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** «loro» müxbir hesablara və cari hesablara mədaxil olunan məbləğlər əks olunur.

***350X1/350X6/351X1/351X6 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesabları üzrə bloklaşdırılmış vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** bloklaşdırılmış «loro» müxbir hesablardan və bloklaşdırılmış cari hesablardan məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** bloklaşdırılmış «loro» müxbir hesablara və bloklaşdırılmış cari hesablara mədaxil olunan məbləğlər əks olunur.

***350X2/350X7/351X2/351X7 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli bankların «loro» müxbir hesabları, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının cari hesabları üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** «loro» müxbir hesablar və cari hesablar üzrə ödənilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** «loro» müxbir hesablar və cari hesablar üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

**Qrup 3512** Banklardakı «nostro» müxbir hesablar üzrə overdraft - milli valyutada
**Qrup 3513** Banklardakı «nostro» müxbir hesablar üzrə overdraft - xarici valyutada

**Qrup 3514** Banklardakı «nostro» müxbir hesablar üzrə overdraft - qiymətli metallarla
**Qrup 3515** Xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar üzrə overdraft - xarici valyutada

**Qrup 3516** Xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar üzrə overdraft - qiymətli metallarla

***351X0/351X5 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesablar üzrə overdraftların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə ödənilən, vaxtı keçmiş əsas borc hesablarına aid edilən və digər borc alətləri kimi rəsmiləşdirilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** banklardakı «nostro» müxbir hesablar üzrə overdraftların məbləği əks olunur.

***351X2/351X7 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***351X3/351X8 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə ödənilən və digər borc alətləri kimi rəsmiləşdirilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***351X4/351X9 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar və xarici mərkəzi/milli banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** banklardakı «nostro» müxbir hesabların overdraftları üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3521** Banklardan cəlb olunmuş qısamüddətli depozitlər - milli valyutada
**Qrup 3522** Banklardan cəlb olunmuş qısamüddətli depozitlər - xarici valyutada
**Qrup 3523** Banklardan cəlb olunmuş qısamüddətli depozitlər - qiymətli metallarla

**Qrup 3524** Xarici mərkəzi/milli banklardan cəlb olunmuş qısamüddətli depozitlər - xarici valyutada

**Qrup 3525** Xarici mərkəzi/milli banklardan cəlb olunmuş qısamüddətli depozitlər - qiymətli metallarla

**Qrup 3526** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş qısamüddətli depozitlər - milli valyutada
**Qrup 3527** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş qısamüddətli depozitlər - xarici valyutada
**Qrup 3528** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş qısamüddətli depozitlər - qiymətli metallarla
**Qrup 3529** Digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli depozitlər - milli valyutada

**Qrup 3530** Digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli depozitlər - xarici valyutada

**Qrup 3531** Digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli depozitlər - qiymətli metallarla

**Qrup 3543** Banklardan cəlb olunmuş uzunmüddətli depozitlər - milli valyutada
**Qrup 3544** Banklardan cəlb olunmuş uzunmüddətli depozitlər - xarici valyutada

**Qrup 3545** Banklardan cəlb olunmuş uzunmüddətli depozitlər - qiymətli metallarla

**Qrup 3546** Xarici mərkəzi/milli banklardan cəlb olunmuş uzunmüddətli depozitlər - xarici valyutada

**Qrup 3547** Xarici mərkəzi/milli banklardan cəlb olunmuş uzunmüddətli depozitlər - qiymətli metallarla
**Qrup 3548** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş uzunmüddətli depozitlər - milli valyutada
**Qrup 3549** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş uzunmüddətli depozitlər - xarici valyutada
**Qrup 3550** Bank olmayan kredit təşkilatlarından cəlb olunmuş uzunmüddətli depozitlər - qiymətli metallarla
**Qrup 3551** Digər maliyyə institutlarından cəlb olunmuş uzunmüddətli depozitlər - milli valyutada

**Qrup 3552** Digər maliyyə institutlarından cəlb olunmuş uzunmüddətli depozitlər - xarici valyutada

**Qrup 3553** Digər maliyyə institutlarından cəlb olunmuş uzunmüddətli depozitlər - qiymətli metallarla

***352X0/352X5/353X0/353X5/354X0/354X5/355X0/355X5 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli/uzunmüddətli depozitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə ödənilən və vaxtı keçmiş əsas borc hesablarına aid edilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlərin məbləği əks olunur.

***352X1/352X6/353X1/353X6/354X1/354X6/355X1/355X6 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli/uzunmüddətli depozitlər üzrə bloklaşdırılmış vəsaitlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorunun bloklaşdırılmış depozit hesablarından məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorunun bloklaşdırılmış depozit hesablarına mədaxil olunan məbləğlər əks olunur.

***352X2/352X7/353X2/353X7/354X2/354X7/355X2/355X7 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli/uzunmüddətli depozitlər üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***352X3/352X8/353X3/353X8/354X3/354X8/355X3/355X8 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident*

*banklar, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli/uzunmüddətli depozitlər üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə ödənilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***352X4/352X9/353X4/353X9/354X4/354X9/355X4/355X9 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezident banklar, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarından cəlb olunmuş qısamüddətli/uzunmüddətli depozitlər üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorundan cəlb olunmuş depozitlər üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 3532** Banklardan alınmış qısamüddətli kreditlər - milli valyutada
**Qrup 3533** Banklardan alınmış qısamüddətli kreditlər - xarici valyutada
**Qrup 3534** Banklardan alınmış qısamüddətli kreditlər - qiymətli metallarla
**Qrup 3535** Xarici mərkəzi/milli banklardan alınmış qısamüddətli kreditlər - xarici valyutada

**Qrup 3536** Xarici mərkəzi/milli banklardan alınmış qısamüddətli kreditlər - qiymətli metallarla

**Qrup 3537** Bank olmayan kredit təşkilatlarından alınmış qısamüddətli kreditlər - milli valyutada

**Qrup 3538** Bank olmayan kredit təşkilatlarından alınmış qısamüddətli kreditlər - xarici valyutada

**Qrup 3539** Bank olmayan kredit təşkilatlarından alınmış qısamüddətli kreditlər - qiymətli metallarla

**Qrup 3540** Digər maliyyə institutlarından alınmış qısamüddətli kreditlər - milli valyutada

**Qrup 3541** Digər maliyyə institutlarından alınmış qısamüddətli kreditlər - xarici valyutada

**Qrup 3542** Digər maliyyə institutlarından alınmış qısamüddətli kreditlər - qiymətli metallarla

**Qrup 3554** Banklardan alınmış uzunmüddətli kreditlər - milli valyutada
**Qrup 3555** Banklardan alınmış uzunmüddətli kreditlər - xarici valyutada
**Qrup 3556** Banklardan alınmış uzunmüddətli kreditlər - qiymətli metallarla
**Qrup 3557** Xarici mərkəzi/milli banklardan alınmış uzunmüddətli kreditlər - xarici valyutada

**Hesabların debeti üzrə** geri qaytarılan və vaxtı keçmiş əsas borc hesablarına aid edilən buraxılmış borc qiymətli kağızların dəyəri əks olunur.
**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızların dəyəri əks olunur.

***420X2/421X2 (passiv)*** *- Bu hesablar veksellər, depozit sertifikatları, əmanət sertifikatları, istiqrazlar, AMB-nin qiymətli kağızları və buraxılmış digər borc qiymətli kağızlar üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***420X3/421X3 (passiv)*** *- Bu hesablar veksellər, depozit sertifikatları, əmanət sertifikatları, istiqrazlar və buraxılmış digər borc qiymətli kağızlar üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə ödənilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***420X4/421X4 (passiv)*** *- Bu hesablar veksellər, depozit sertifikatları, əmanət sertifikatları, istiqrazlar və buraxılmış digər borc qiymətli kağızlar üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.
**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 4296** Buraxılmış borc qiymətli kağızlar üzrə tənzimləmələr - milli valyutada
**Qrup 4297** Buraxılmış borc qiymətli kağızlar üzrə tənzimləmələr - xarici valyutada

***42960/42970 (passiv)*** *- Bu hesablar buraxılmış borc qiymətli kağızların amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə müsbət tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan müsbət tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə müsbət tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı müsbət tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.
**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə müsbət tənzimləmələrin məbləği əks olunur.

***42961/42971 (kontr-passiv)** - Bu hesablar buraxılmış borc qiymətli kağızların amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə mənfi tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan mənfi tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə mənfi tənzimləmələrin məbləği əks olunur.

**Hesabların krediti üzrə** buraxılmış borc qiymətli kağızlar üzrə mənfi tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı mənfi tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

## SİNİF 43 Digər əməliyyatlar

**Təyinat:** Bu sinifdə əks olunan hesablar broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq, market-meyker və digər əməliyyatların uçotunu aparmaq üçün istifadə olunur.

**İlkin tanınma:** Digər əməliyyatlar ədalətli dəyərlə tanınır.

**Qiymətləndirmə:** Digər əməliyyatlar effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.

**Uçotdan çıxarılma:** Digər əməliyyatlar müqavilə şərtlərinə uyğun olaraq öhdəliklər yerinə yetirildikdə uçotdan çıxarılır.

**Qrup 4320** Broker əməliyyatları - milli valyutada
**Qrup 4321** Broker əməliyyatları - xarici valyutada
**Qrup 4322** Lizinq əməliyyatları - milli valyutada
**Qrup 4323** Lizinq əməliyyatları - xarici valyutada
**Qrup 4324** Faktorinq əməliyyatları - milli valyutada
**Qrup 4325** Faktorinq əməliyyatları - xarici valyutada
**Qrup 4326** Forfeytinq əməliyyatları - milli valyutada
**Qrup 4327** Forfeytinq əməliyyatları - xarici valyutada
**Qrup 4328** Anderraytinq və market-meyker əməliyyatları - milli valyutada
**Qrup 4329** Anderraytinq və market-meyker əməliyyatları - xarici valyutada
**Qrup 4330** Digər əməliyyatlar - milli valyutada
**Qrup 4331** Digər əməliyyatlar - xarici valyutada
**Qrup 4332** Digər əməliyyatlar - qiymətli metallarla

***432X0/433X0 (passiv)** - Bu hesablar broker, lizinq, faktorinq, forfeytinq, ander-raytinq, market-meyker və digər əməliyyatlar üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq, market-meyker və digər əməliyyatlar üzrə ödənilən, vaxtı keçmiş borc hesablarına aid edilən məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq, market-meyker və digər əməliyyatlar üzrə ödəniləcək məbləğlər əks olunur.

***432X2/433X2 (passiv)** - Bu hesablar broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq və market-meyker və digər əməliyyatlar üzrə hesablanmış ödəniləcək haqq və komissiyaların/faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq, market-meyker və digər əməliyyatlar üzrə ödənilən və vaxtı keçmiş borc hesablarına aid edilən haqq və komissiya/faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** broker, lizinq, faktorinq, forfeytinq, anderraytinq, market-meyker və digər əməliyyatlar üzrə xərc hesablarında tanınan ödəniləcək haqq və komissiya/faiz məbləğləri əks olunur.

***432X3/433X3/433X4 (passiv)*** *- Bu hesablar broker, lizinq, faktorinq, forfeytinq və digər əməliyyatlar üzrə vaxtı keçmiş borcların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** broker, lizinq, faktorinq, forfeytinq və digər əməliyyatlar üzrə ödənilən vaxtı keçmiş borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** broker, lizinq, faktorinq, forfeytinq və digər əməliyyatlar üzrə vaxtı keçmiş borcların məbləği əks olunur.

**Qrup 4396** Digər əməliyyatlar üzrə tənzimləmələr - milli vayutada
**Qrup 4397** Digər əməliyyatlar üzrə tənzimləmələr - xarici vayutada
**Qrup 4398** Digər əməliyyatlar üzrə tənzimləmələr - qiymətli metallarda

***43960/43970/43980 (passiv)*** *- Bu hesablar digər əməliyyatlar üzrə öhdəliklərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə müsbət tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan müsbət tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** digər əməliyyatlar üzrə müsbət tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı müsbət tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

**Hesabların krediti üzrə** digər əməliyyatlar üzrə müsbət tənzimləmələrin məbləği əks olunur.

***43961/43971/43981 (kontr-passiv)*** *- Bu hesablar digər əməliyyatlar üzrə öhdəliklərin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə mənfi tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan mənfi tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** digər əməliyyatlar üzrə mənfi tənzimləmələrin məbləği əks olunur.
**Hesabların krediti üzrə** digər əməliyyatlar üzrə mənfi tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı mənfi tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

### SİNİF 44 Mənfəət vergisi üzrə öhdəliklər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar cari və təxirə salınmış mənfəət vergisi üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Mənfəət vergisi üzrə öhdəliklər ilkin dəyərlə tanınır.
**Qiymətləndirmə:** Cari mənfəət vergisi öhdəliyi hesabat dövrünün sonuna mövcud olan vergi dərəcələri əsasında qiymətləndirilərək ödəniləcək məbləğ həcmində ölçülür.
Təxirə salınmış mənfəət vergisi öhdəliyi hesabat dövrünün sonuna uçotda olan və ya hesabat dövründə uçota alınmış öhdəliyin realizə olunduğu dövrə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə ölçülür.
**Uçotdan çıxarılma:** Cari mənfəət vergisi öhdəliyi cari vergi aktivləri ilə əvəzləşdirilməklə yerinə

yetirildikdə və ödənildikdə uçotdan çıxarılır.
Təxirə salınmış mənfəət vergisi öhdəliyi çıxıla bilən müvəqqəti fərqlər aradan qaldırıldıqda, təxirə salınmış vergi aktivləri ilə əvəzləşdirilməklə yerinə yetirildikdə və ödənildikdə uçotdan çıxarılır.

**Qrup 4401** Cari mənfəət vergisi üzrə öhdəliklər - milli valyutada

***44010 (passiv)*** *- Bu hesab cari mənfəət vergisi üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** cari mənfəət vergisi üzrə ödənilən və köçürülmüş avans məbləğləri ilə əvəzləşdirilən məbləğlər əks olunur.
**Hesabın krediti üzrə** cari mənfəət vergisi üzrə ödəniləcək məbləğlər əks olunur.

**Qrup 4451** Təxirə salınmış mənfəət vergisi üzrə öhdəliklər - mili valyutada

***44510 (passiv)*** *- Bu hesab təxirə salınmış mənfəət vergisi üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** təxirə salınmış mənfəət vergisi öhdəliyinin təxirə salınmış mənfəət vergisi aktivi ilə əvəzləşdirilən məbləği və təxirə salınmış mənfəət vergisi öhdəliyi üzrə dəyərin azalması məbləği əks olunur.
**Hesabın krediti üzrə** təxirə salınmış mənfəət vergisi öhdəliyinin məbləği əks olunur.

## SİNİF 45 Digər öhdəliklər

**Təyinat:** Bu sinifdə əks olunan hesablar digər öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Digər öhdəliklər MHBS-yə uyğun olaraq ilkin və ya ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Digər öhdəliklər MHBS-yə uyğun olaraq ilkin dəyərlə, ədalətli dəyərlə və ya effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** Digər öhdəliklər müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə və məxaric olunduqda uçotdan çıxarılır.

**Qrup 4501** Ödənilməkdə olan məbləğlər - milli valyutada
**Qrup 4502** Ödənilməkdə olan məbləğlər - xarici valyutada

***4501X/4502X (passiv)*** *- Bu hesablar ödəniş kartları, xarici valyutanın və qiymətli metalların alınması/satılması üzrə başa çatdırılmamış hesablaşmaların, xidmətlər üzrə hesablaşmaların və digər ödənilməkdə olan məbləğlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödənilməkdə olan məbləğlər üzrə balansdan silinən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** ödənilməkdə olan məbləğlər əks olunur.

**Qrup 4503** Hesablanmış komissiyalar - milli valyutada
**Qrup 4504** Hesablanmış komissiyalar - xarici valyutada

***4503X/4504X (passiv)*** *- Bu hesablar banklarla əməliyyatlar və digər xidmətlər üzrə hesablanmış ödəniləcək komissiyaların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** ödənilən komissiyaların məbləği əks olunur.
**Hesabların krediti üzrə** xərc hesablarında tanınan ödəniləcək komissiyaların məbləği əks olunur.

**Qrup 4505** İşçilərlə hesablaşmalar - milli valyutada
**Qrup 4506** İşçilərlə hesablaşmalar - xarici valyutada

***4505X/4506X (passiv)*** *- Bu hesablar işçilərlə hesablaşmaların (əmək haqqı, mükafat, bonus, avans məbləğləri, ezamiyyə, alimentlər və s.) uçotunu aparmaq üçün istifadə olunur*
**Hesabların debeti üzrə** işçilərlə hesablaşmalar üzrə ödənilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** xərc hesablarında tanınan işçilərə ödəniləcək məbləğlər əks olunur.
**Qrup 4507** Müəyyən edilməmiş məbləğlər - milli valyutada
**Qrup 4508** Müəyyən edilməmiş məbləğlər - xarici valyutada

***4507X/4508X (passiv)*** *- Bu hesablar banklararası və digər əməliyyatlar üzrə müəyyən edilməmiş məbləğlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** müəyyən edildikdən sonra müvafiq hesablara köçürülən və geri qaytarılan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** müəyyən edilməmiş məbləğlər əks olunur.

**Qrup 4509** Dövlət Büdcəsi ilə hesablaşmalar - milli valyutada
**Qrup 4510** Vergilər üzrə kreditor borclar (mənfəət vergisi istisna olmaqla) - milli valyutada

**Qrup 4511** Dövlət fondları və digər fondlarla hesablaşmalar - milli valyutada

***4509X/4510X/4511X (passiv)*** *- Bu hesablar Dövlət Büdcəsi, Dövlət Sosial Müdafiə Fondu, pensiya fondları və digər fondlarla hesablaşmaların və mənfəət vergisi istisna olmaqla digər vergilər (əlavə dəyər vergisi, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, fiziki şəxslərin gəlir vergisi, yol vergisi, mənbədən tutulan vergi və s.) üzrə kreditor borcların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** Dövlət Büdcəsi, dövlət fondları və digər fondlara ödənilən və ödənilmiş avanslarla əvəzləşdirilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** Dövlət Büdcəsi, dövlət fondları və digər fondlara ödəniləcək məbləğlər əks olunur.

**Qrup 4515** Gələcək dövrün gəlirləri - milli valyutada
**Qrup 4516** Gələcək dövrün gəlirləri - xarici valyutada

***4515X/4516X (passiv)*** *- Bu hesablar bank əməliyyatları, təsərrüfat əməliyyatları, anderraytinq, market-meyker əməliyyatları və digər əməliyyatlar üzrə gələcək dövrün gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** balansdan silinən gələcək dövrün gəlir məbləğləri əks olunur.

**Hesabların krediti üzrə** gələcək dövrün gəlir məbləğləri əks olunur.

**Qrup 4517** Filiallararası hesablaşmalar üzrə öhdəliklər - milli valyutada
**Qrup 4518** Filiallararası hesablaşmalar üzrə öhdəliklər - xarici valyutada

***4517X/4518X (passiv)*** *- Bu hesablar filiallararası hesablaşmaların uçotunu aparmaq üçün istifadə olunur.*

*Bu hesabların qalığı müvafiq olaraq 2517X/2518X saylı hesabların qalığına bərabər olmalıdır.*
**Hesabların debeti üzrə** filiallararası hesablaşmalar üzrə məxaric olunan məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** filiallararası hesablaşmalar üzrə mədaxil olunan məbləğlər əks olunur.

**Qrup 4519** Şərti öhdəliklər üzrə ehtiyatlar - milli valyutada

***4519X (passiv)*** *- Bu hesablar iddialar, qarantiyalar və digər şərti öhdəliklər üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** şərti öhdəliklər üzrə bərpa olunan və balansdan silinən ehtiyatların məbləği əks olunur.
**Hesabların krediti üzrə** şərti öhdəliklər üzrə yaradılmış ehtiyatların məbləği əks olunur.

**Qrup 4521** Hesablanmış dividentlər - milli valyutada

***4521X (passiv)*** *- Bu hesablar adi səhmlər, imtiyazlı səhmlər və paylar üzrə hesablanmış dividendlərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** ödənilən dividendlərin məbləği əks olunur.

**Hesabların krediti üzrə** ödəniləcək dividendlərin məbləği əks olunur.

**Qrup 4523** Səhmdarlardan alınmış avanslar - milli valyutada

***4523X (passiv)*** *- Bu hesablar səhmdarlardan alınmış, qeydiyyata alınmamış kapitalın, adi səhmlərin, imtiyazlı səhmlərin və payların uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** səhmlərin qeydiyyata alınması nəticəsində öhdəliyin azalması məbləği əks olunur.
**Hesabların krediti üzrə** səhmdarlardan alınmış avanslar üzrə öhdəliklərin məbləği əks olunur.

**Qrup 4524** Səhmlər əsasında ödənişlər üzrə öhdəliklər - milli valyutada

***45240 (passiv)*** *- Bu hesab səhmlər əsasında ödənişlər üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** səhmlər əsasında ödənişlər üzrə ödənilən öhdəliklərin məbləği əks olunur.

**Hesabların krediti üzrə** səhmlər əsasında ödənişlər üzrə öhdəliklərin məbləği əks olunur.

**Qrup 4527** Digər öhdəliklər - milli valyutada
**Qrup 4528** Digər öhdəliklər - xarici valyutada
**Qrup 4529** Digər öhdəliklər - qiymətli metallarla

***4527X/4528X/4529X (passiv)*** *- Bu hesablar digər öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** digər öhdəliklər üzrə məxaric olunan məbləğlər əks olunur.

**Hesabların krediti üzrə** digər öhdəliklər üzrə mədaxil olunan məbləğlər əks olunur.

**SİNİF 46 Törəmə maliyyə alətləri**

**Təyinat**: Bu sinifdə əks olunan hesablar törəmə maliyyə alətləri ilə əməliyyatlardan (forvard, opsion, SVOP, fyuçers və s.) yaranan öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma və qiymətləndirmə:** Törəmə maliyyə alətləri ədalətli dəyərlə tanınır və ölçülür.
**Uçotdan çıxarılma:** Törəmə maliyyə alətləri ilə əməliyyatlardan yaranan öhdəliklər müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə, törəmə maliyyə alətinin ədalətli dəyəri nominal dəyərindən çox olduqda və balansdan silindikdə uçotdan çıxarılır.

**Qrup 4601** Törəmə maliyyə alətləri - milli valyutada
**Qrup 4602** Törəmə maliyyə alətləri - xarici valyutada

***4601X/4602X (passiv)*** *- Bu hesablar törəmə maliyyə alətləri üzrə öhdəliklərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** törəmə maliyyə alətlərinin ədalətli dəyərində müsbət dəyişikliklərin məbləği, öhdəliklər üzrə ödənilən məbləğlər **və** uçotdan çıxarılması zamanı silinən mənfi qalıq məbləği əks olunur.
**Hesabların krediti üzrə** törəmə maliyyə alətlərinin ədalətli dəyərinin nominal dəyərindən az olan məbləği və ədalətli dəyərində mənfi dəyişikliklərin məbləği əks olunur.

**SİNİF 47 Xaric olunan qrup**

**Təyinat:** Bu sinifdə əks olunan hesablar xaric olunan qrup üzrə passivlərin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma və qiymətləndirmə:** Xaric olunan qrup üzrə passivlər ədalətli dəyərlə tanınır.
**Uçotdan çıxarılma:** Xaric olunan qrup üzrə passivlər satıldıqda uçotdan çıxarılır.

**Qrup 4702** Xaric olunan qrup üzrə passivlər

***47020 (passiv)*** *- Bu hesab xaric olunan qrup üzrə passivlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** xaric olunan qrup üzrə passivlərin uçotdan çıxarılması məbləği əks olunur.
**Hesabın krediti üzrə** xaric olunan qrup üzrə passivlərin məbləği əks olunur.

**SİNİF 48 İmtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəlikləri**

**Təyinat:** Bu sinifdə əks olunan hesablar imtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəliklərinin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** İmtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəlikləri ilkin dəyərlə tanınır.
**Qiymətləndirmə:** İlkin tanınmadan sonra imtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəlikləri effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** İmtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəlikləri müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə uçotdan çıxarılır.

**Qrup 4801** İmtiyazlı səhmlər formasında buraxılmış maliyyə öhdəlikləri - milli valyutada
**Qrup 4802** Pay formasında buraxılmış maliyyə öhdəlikləri - milli valyutada

***48010/48020 (passiv)*** *- Bu hesablar imtiyazlı səhmlərin və pay formasında buraxılmış maliyyə öhdəliklərinin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** geri qaytarılan imtiyazlı səhmlərin və pay formasında buraxılmış maliyyə öhdəliklərinin dəyəri əks olunur.
**Hesabların krediti üzrə** emissiya olunan imtiyazlı səhmlərin və pay formasında buraxılmış maliyyə öhdəliklərinin dəyəri əks olunur.

## SİNİF 49 Subordinasiya borc öhdəlikləri

**Təyinat:** Bu sinifdə əks olunan hesablar subordinasiya borc öhdəliklərinin uçotunu aparmaq üçün istifadə olunur.
**İlkin tanınma:** Subordinasiya borc öhdəlikləri ədalətli dəyərlə tanınır.
**Qiymətləndirmə:** Subordinasiya borc öhdəlikləri effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.
**Uçotdan çıxarılma:** Subordinasiya borc öhdəlikləri müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirildikdə uçotdan çıxarılır.

**Qrup 4901** Subordinasiya borc öhdəlikləri - milli valyutada
**Qrup 4902** Subordinasiya borc öhdəlikləri - xarici valyutada

***490X0/490X5 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezidentlərdən alınmış subordinasiya borc öhdəliklərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə ödənilən və vaxtı keçmiş əsas borc hesablarına aid edilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** alınmış subordinasiya borc öhdəliklərinin məbləği əks olunur.

***490X2/490X7 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezidentlərdən alınmış subordinasiya borc öhdəlikləri üzrə hesablanmış ödəniləcək faizlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə ödənilən və vaxtı keçmiş faiz borcu hesablarına aid edilən faiz məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** subordinasiya borc öhdəlikləri üzrə xərc hesablarında tanınan ödəniləcək faiz məbləğləri əks olunur.

***490X3/490X8 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezidentlərdən alınmış subordinasiya borc öhdəlikləri üzrə vaxtı keçmiş əsas borcların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə ödənilən vaxtı keçmiş əsas borcların məbləği əks olunur.
**Hesabların krediti üzrə** subordinasiya borc öhdəlikləri üzrə vaxtı keçmiş əsas borcların məbləği əks olunur.

***490X4/490X9 (passiv)*** *- Bu hesablar rezident/qeyri-rezidentlərdən alınmış subordinasiya borc öhdəlikləri üzrə vaxtı keçmiş faiz borclarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə ödənilən vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Hesabların krediti üzrə** subordinasiya borc öhdəlikləri üzrə vaxtı keçmiş faiz borclarının məbləği əks olunur.

**Qrup 4996** Subordinasiya borc öhdəlikləri üzrə tənzimləmələr - milli valyutada

**Qrup 4997** Subordinasiya borc öhdəlikləri üzrə tənzimləmələr - xarici valyutada

***49960/49970 (passiv)*** *- Bu hesablar subordinasiya borc öhdəliklərinin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə müsbət tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan müsbət tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə müsbət tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı müsbət tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

**Hesabların krediti üzrə** subordinasiya borc öhdəlikləri üzrə müsbət tənzimləmələrin məbləği əks olunur.

***49961/49971 (kontr-passiv)*** *- Bu hesablar subordinasiya borc öhdəliklərinin amortizasiya olunmuş dəyərinin müəyyən edilməsi üzrə mənfi tənzimləmələrin və müqavilə faiz dərəcəsi ilə oxşar maliyyə alətləri üzrə bazar faiz dərəcələri arasındakı fərq nəticəsində yaranan mənfi tənzimləmələrin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** subordinasiya borc öhdəlikləri üzrə mənfi tənzimləmələrin məbləği əks olunur.

**Hesabların krediti üzrə** subordinasiya borc öhdəlikləri üzrə mənfi tənzimləmələrin amortizasiyası məbləği və vəsaitlərin uçotdan çıxarılması zamanı mənfi tənzimləmələr üzrə silinən qalıq məbləği əks olunur.

## KAPİTAL

### SİNİF 50 Kapital

**Təyinat:** Bu sinifdə əks olunan hesablar səhmdarlarla əməliyyatların və kapitalda əks olunan digər əməliyyatların uçotunu aparmaq üçün istifadə olunur.

**Qrup 5001** AMB-nin nizamnamə kapitalı

***50010 (passiv)*** *- Bu hesab AMB-nin nizamnamə kapitalının uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabın debeti üzrə** əməliyyat aparılmır.

**Hesabın krediti üzrə** AMB-nin nizamnamə kapitalının artırılması üçün cari maliyyə ilinin mənfəətindən köçürülən məbləğlər əks olunur.

**Qrup 5002** Kredit təşkilatlarının nizamnamə kapitalı

***50020/50021 (passiv)*** *- Bu hesablar kredit təşkilatları tərəfindən buraxılmış adi və imtiyazlı səhmlərin nominal dəyəri ilə uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** kredit təşkilatlarının nizamnamə kapitalı üzrə geri alınmış ləğv edilən adi və imtiyazlı səhmlərin dəyəri əks olunur.

**Hesabların krediti üzrə** kredit təşkilatlarının nizamnamə kapitalı üzrə emissiya olunan adi və imtiyazlı səhmlərin dəyəri əks olunur.

**Qrup 5003** Emissiya gəliri

***50030/50031(passiv)*** *- Bu hesablar səhmlər üzrə emissiya gəlirinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** əməliyyat aparılmır.
**Hesabların krediti üzrə** adi və imtiyazlı səhmlərin emissiyasından yaranan gəlir məbləği əks olunur.

**Qrup 5004** Geri alınmış səhmlər

***50040/50041(aktiv)*** *- Bu hesablar kredit təşkilatları tərəfindən səhmdarlardan geri alınmış səhmlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** kredit təşkilatları tərəfindən geri alınan səhmlər üzrə ödənilən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** kredit təşkilatları tərəfindən geri alınmış səhmlərin yenidən satışından mədaxil olunan məbləğlər və ləğv edilən səhmlərin dəyəri əks olunur.

**Qrup 5006** Əsas vəsaitlər və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi üzrə ehtiyatlar

***50060/50061 (passiv)*** *- Bu hesablar ədalətli dəyərlə ölçülən əsas vəsaitlər və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** əsas vəsaitlər və qeyri-maddi aktivlərin növbəti yenidənqiymətləndirmə üzrə dəyərinin azalması məbləğləri və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.
**Hesabların krediti üzrə** əsas vəsaitlər və qeyri-maddi aktivlərin yenidənqiymətləndirmə üzrə dəyərinin artması məbləğləri əks olunur.

**Qrup 5009** Satış üçün mövcud olan qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə ehtiyatlar

***50090 (aktiv-passiv)*** *- Bu hesab satış üçün mövcud olan qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə ehtiyatların uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** satış üçün mövcud olan qiymətli kağızların yenidənqiymətləndirmə üzrə dəyərinin azalması məbləğləri və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.
**Hesabın kredit üzrə** satış üçün mövcud olan qiymətli kağızların yenidənqiymətləndirmə üzrə dəyərinin artması məbləğləri, dəyərdən düşmə üzrə xərc hesablarına aid edilən və uçotdan çıxarılması zamanı yenidənqiymətləndirmə üzrə silinən mənfi qalıq məbləğləri əks olunur.

**Qrup 5010** Digər yenidənqiymətləndirmə ehtiyatları

***50100 (aktiv-passiv)*** *- Bu hesab digər yenidənqiymətləndirmə ehtiyatlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** digər yenidənqiymətləndirmə ehtiyatlarının azalması məbləğləri və yenidənqiymətləndirmə üzrə silinən müsbət qalıq məbləğləri əks olunur.
**Hesabın krediti üzrə** digər yenidənqiymətləndirmə ehtiyatlarının artması məbləğləri və yenidənqiymətləndirmə üzrə silinən mənfi qalıq məbləğləri əks olunur.

**Qrup 5011** Keçmiş illərin mənfəəti/zərəri

***50110 (aktiv-passiv)** - Bu hesab keçmiş illərin mənfəəti/zərərinin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabın debeti üzrə** 50120 saylı «keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərəri» hesabından auditor tərəfindən təsdiq edildikdən sonra köçürülən zərər məbləği, 50111 saylı «kapital ehtiyatları» hesabına köçürülən məbləğlər və ödənilməsi elan olunan dividend məbləğləri əks olunur.
**Hesabın krediti üzrə** 50120 saylı «keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərəri» hesabından auditor tərəfindən təsdiq edildikdən sonra köçürülən mənfəət məbləği və 50111 saylı «kapital ehtiyatları» hesabından bərpa olunan məbləğlər əks olunur.

***50111 (passiv)** - Bu hesab kapital ehtiyatlarının uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** 50110 saylı «keçmiş illərin mənfəəti/zərəri» hesabına bərpa olunan məbləğlər əks olunur.
**Hesabın krediti üzrə** 50110 saylı «keçmiş illərin mənfəəti/zərəri» hesabından mədaxil məbləğlər əks olunur.

**Qrup 5012** Keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərəri

***50120 (aktiv-passiv)** - Bu hesab keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabından köçürülən cari maliyyə ilinin zərər məbləği və auditor tərəfindən təsdiq edildikdən sonra 50110 saylı «keçmiş illərin mənfəəti/zərəri» hesabına köçürülən mənfəət məbləği əks olunur.
**Hesabların krediti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabından köçürülən cari maliyyə ilinin mənfəət məbləği və auditor tərəfindən təsdiq edildikdən sonra 50110 saylı «keçmiş illərin mənfəəti/zərəri» hesabına köçürülən zərər məbləği əks olunur.

**Qrup 5013** Cari maliyyə ilinin mənfəəti/zərəri

***50131 (aktiv-passiv)** - Bu hesab cari maliyyə ilinin mənfəəti/zərərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabın debeti üzrə** cari maliyyə ilinin xərc məbləğləri və 50120 saylı «keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərəri» hesabına köçürülən cari maliyyə ilinin mənfəət məbləği əks olunur.
**Hesabın krediti üzrə** cari maliyyə ilinin gəlir məbləğləri və 50120 saylı «keçmiş maliyyə ilinin təsdiq olunmamış mənfəəti/zərəri» hesabına köçürülən cari maliyyə ilinin zərər məbləği əks olunur.

## GƏLİRLƏR

### SİNİF 60 Qiymətli kağızlar üzrə faiz gəlirləri

**Təyinat:** Bu sinifdə əks olunan hesablar qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri, mükafat gəlirləri və diskontun amortizasiyası üzrə gəlirlərin uçotunu aparmaq üçün istifadə olunur.

**Qrup 6001** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - milli valyutada
**Qrup 6002** Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - xarici valyutada

***6001X/6002X*** *- Bu hesablar ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə faiz/kupon gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabın krediti üzrə** ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar üzrə faiz/kupon gəlirlərinin məbləği əks olunur.

**Qrup 6011** Satış üçün mövcud olan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - milli valyutada
**Qrup 6012** Satış üçün mövcud olan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - xarici valyutada

***6011X/6012X*** *- Bu hesablar satış üçün mövcud olan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə faiz/kupon gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabın krediti üzrə** satış üçün mövcud olan qiymətli kağızlar üzrə faiz/kupon gəlirlərinin məbləği əks olunur.

**Qrup 6021** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - milli valyutada
**Qrup 6022** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə faiz/kupon gəlirləri - xarici valyutada
***6021X/6022X*** *- Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə faiz/kupon gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabın krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə faiz/kupon gəlirlərinin məbləği əks olunur.

**Qrup 6031** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə diskontun amortizasiyası üzrə gəlirlər - milli valyutada
**Qrup 6032** Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə diskontun amortizasiyası üzrə gəlirlər - xarici valyutada

*6031X/6032X - Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə diskontun amortizasiyası üzrə gəlirlərin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə diskontun amortizasiyası üzrə gəlirlərin məbləği əks olunur.

| | | |
|---|---|---|
| **Qrup** | **6041** | Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə mükafat gəlirləri - milli valyutada |
| **Qrup** | **6042** | Ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə mükafat gəlirləri - xarici valyutada |

*6041X/6042X - Bu hesablar ödəmə müddəti tamamlanana qədər saxlanılan dövlət, rezident/qeyri-rezident maliyyə sektoru və digər sektorların qiymətli kağızları üzrə mükafat gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə mükafat gəlirlərinin məbləği əks olunur.

## SİNİF 61 Maliyyə sektoru və beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri

**Təyinat:** Bu sinifdə əks olunan hesablar maliyyə sektoru və beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.

| | | |
|---|---|---|
| **Qrup** | **6101** | AMB-də yerləşdirilmiş vəsaitlər üzrə faiz gəlirləri - milli valyutada |
| **Qrup** | **6102** | AMB-də yerləşdirilmiş vəsaitlər üzrə faiz gəlirləri - xarici valyutada |
| **Qrup** | **6111** | Banklarda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada |
| **Qrup** | **6112** | Banklarda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada |
| **Qrup** | **6121** | Xarici mərkəzi/milli banklarda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada |
| **Qrup** | **6122** | Xarici mərkəzi/milli banklarda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada |
| **Qrup** | **6131** | Bank olmayan kredit təşkilatları ilə hesablaşmalar üzrə faiz gəlirləri - milli valyutada |
| **Qrup** | **6132** | Bank olmayan kredit təşkilatları ilə hesablaşmalar üzrə faiz gəlirləri - xarici valyutada |
| **Qrup** | **6141** | Digər maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri - milli valyutada |
| **Qrup** | **6142** | Digər maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri - xarici valyutada |

***610X0/611X0/611X5/612X0*** *- Bu hesablar AMB, xarici mərkəzi/milli banklar və rezident/qeyri-rezident banklardakı «nostro» müxbir hesabları üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB, xarici mərkəzi/milli banklar və rezident/qeyri-rezident banklardakı «nostro» müxbir hesabları üzrə faiz gəlirlərinin məbləği əks olunur.

***611X1/611X6/612X1/613X1/613X6/614X1/614X6*** *- Bu hesablar xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının overdraft hesabları üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*

**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarının overdraft hesabları üzrə faiz gəlirlərinin məbləği əks olunur.

***610X2/611X2/611X7/612X2/614X7*** *- Bu hesablar AMB, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar və qeyri-rezident digər maliyyə institutlarında yerləşdirilmiş depozitlər üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar və qeyri-rezident digər maliyyə institutlarında yerləşdirilmiş depozitlər üzrə faiz gəlirlərinin məbləği əks olunur.

***611X3/611X8/612X3/613X3/613X8/614X3/614X8*** *- Bu hesablar xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarına verilmiş kreditlər üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutlarına verilmiş kreditlər üzrə faiz gəlirlərinin məbləği əks olunur.

***610X4/611X4/611X9/612X4/613X4/613X9/614X4/614X9*** *- Bu hesablar AMB, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutları ilə əks-REPO əməliyyatları üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** AMB, xarici mərkəzi/milli banklar, rezident/qeyri-rezident banklar, rezident/qeyri-rezident bank olmayan kredit təşkilatları və digər maliyyə institutları ilə əks-REPO əməliyyatları üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6151** Beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri - milli valyutada

**Qrup 6152** Beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri - xarici valyutada

**Qrup 6153** Beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirləri - xüsusi borcalma hüquqlarında

***6151X/6152X/6153X*** *- Bu hesablar Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6171** Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6172** Maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - xarici valyutada

***61710/61720*** *- Bu hesablar maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirlərinin məbləği əks olunur.

## SİNİF 62 Büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlarla hesablaşmalar üzrə faiz gəlirləri

**Təyinat**: Bu sinifdə əks olunan hesablar büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlarla hesablaşmalar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.

**Qrup 6201** Büdcə təşkilatları və dövlət fondlarının overdraft hesabları üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6202** Büdcə təşkilatları və dövlət fondlarının overdraft hesabları üzrə faiz gəlirləri - xarici valyutada
**Qrup 6231** Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatların overdraft hesabları üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6232** Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatların overdraft hesabları üzrə faiz gəlirləri - xarici valyutada

***6201X/6202X/6231X/6232X*** *- Bu hesablar büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatların overdraft hesabları üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/ zərəri» hesabına köçürülən məbləğlər

əks olunur.
**Hesabların krediti üzrə** büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatların overdraft hesabları üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6211** Büdcə təşkilatları və dövlət fondlarına verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6212** Büdcə təşkilatları və dövlət fondlarına verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada
**Qrup 6241** Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6242** Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada

***6211X/6212X/6241X/6242X** - Bu hesablar büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verimiş kreditlər üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6221** Büdcə təşkilatları və dövlət fondlarına verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6222** Büdcə təşkilatları və dövlət fondlarına verilmiş kreditlər vaxtı keçmiş borclar üzrə üzrə faiz gəlirləri - xarici valyutada
**Qrup 6271** Dövlət mülkiyyətində olan dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6272** Dövlət mülkiyyətində olan dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - xarici valyutada

***62210/62220/62710/62720** - Bu hesablar büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** büdcə təşkilatları, dövlət fondları, dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verimiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirlərinin məbləği əks olunur.

## SİNİF 63 Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərlə hesablaşmalar üzrə faiz gəlirləri

**Təyinat:** Bu sinifdə əks olunan hesablar dövlət mülkiyyətində olmayan rezi-dent/qeyri-rezident hüquqi şəxslərlə hesablaşmalar üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.

**Qrup 6301** Dövlət mülkiyyətində olmayan rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6302** Dövlət mülkiyyətində olmayan rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirləri - xarici valyutada
**Qrup 6311** Dövlət mülkiyyətində olmayan qeyri-rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6312** Dövlət mülkiyyətində olmayan qeyri-rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirləri - xarici valyutada

***6301X/6302X/6311X/6312X*** *- Bu hesablar dövlət mülkiyyətində olmayan rezident/qeyri-rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** dövlət mülkiyyətində olmayan rezident/qeyri-rezident hüquqi şəxslərin overdraft hesabları üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6321** Dövlət mülkiyyətində olmayan rezident hüquqi şəxslərə verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6322** Dövlət mülkiyyətində olmayan rezident hüquqi şəxslərə verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada
**Qrup 6331** Dövlət mülkiyyətində olmayan qeyri-rezident hüquqi şəxslərə verilmiş kreditlər üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6332** Dövlət mülkiyyətində olmayan qeyri-rezident hüquqi şəxslərə verilmiş kreditlər üzrə faiz gəlirləri - xarici valyutada

***6321/6322X/6331X/6332X*** *- Bu hesablar dövlət mülkiyyətində olmayan rezident/ qeyri-rezident hüquqi şəxslərə verilmiş kreditlər üzrə faiz gəlirlərinin uçotunu aparmaq üçün istifadə olunur.*
**Hesabların debeti üzrə** 50130 saylı «cari maliyyə ilinin mənfəəti/ zərəri» hesabına köçürülən məbləğlər əks olunur.
**Hesabların krediti üzrə** dövlət mülkiyyətində olmayan rezident/qeyri-rezident hüquqi şəxslərə verimiş kreditlər üzrə faiz gəlirlərinin məbləği əks olunur.

**Qrup 6371** Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - milli valyutada
**Qrup 6372** Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirləri - xarici valyutada

